**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNİN BƏRPASININ İNVESTİSİYALAŞMASI ÜZRƏ YERLİ BANKLARIN İMKANLARININ DƏYƏRLƏNDİRİLMƏSİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**Quliyev Şahin Natiq**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"____" ________________ 2022-ci il**

# "AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNİN BƏRPASININ İNVESTİSİYALAŞMASI ÜZRƏ YERLİ BANKLARIN İMKANLARININ DƏYƏRLƏNDİRİLMƏSİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403 - Maliyyə
**İxtisaslaşma:** Bank işi
**Qrup:** 606


**Magistrant:**
**Quliyev Şahin Natiq oğlu**
**__________________imza**

**Elmi rəhbər:**
**i.e.d., prof. Bağırov Mübariz Məmmədhüseyn oğlu**
**______________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**______________________imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________imza**


**BAKI – 2022**

**Elm andı**

Mən, Quliyev Şahin Natiq oğlu and içirəm ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpasının investisiyalaşması üzrə yerli bankların imkanlarının dəyərləndirilməsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# “AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNİN BƏRPASININ İNVESTİSİYALAŞMASI ÜZRƏ YERLİ BANKLARIN İMKANLARININ DƏYƏRLƏNDİRİLMƏSİ”

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Hazırkı dövrdə işğaldan azad edilmiş ərazilərin bərpası işləri həyata keçirilir. Bu istiqamətdə dövlət investisiyaları ilə yanaşı özəl sektorun investisiyaları da əhəmiyyətli rol oynayaraq regionda innovativ inkişafın formalaşmasını təmin edə bilər. Bu məsələ hazırkı dövrdə dövlətin iqtisadi siyasətində aktual məsələlərdən birinə çevrilmişdir və ona görə də ətraflı araşdırmaya ehtiyac vardır.**

**Tədqiqatın məqsədi: Dissertasiyanın məqsədi milli iqtisadiyyatda infrastrukturun formalaşması məsələlərini Yuxarı Qarabağ iqtisadi rayonu timsalında nəzərdən keçirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiyanın yazılması prosesində investisiya fəaliyyəti ilə bağlı normativ sənədlərin, elmi-nəzəri yanaşmaların, əsas anlayışların və terminaloji sistemin analizi metodlarından, statistik məlumatların empirik təhlilindən, eləcə də təcrübi əhəmiyyətə malik biliklərin tətbiq olunmasının analizi metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Magistr dissertasiya işinin tədqiqində aidiyyəti dövlət qurumlarının rəsmi məlumatlarından və ədəbiyyat siyahısında qeyd olunmuş bir neçə ədəbiyyat və dərsliklərdən, habelə müvafiq sahədə respublika və xarici ölkələrin iqtisadçı alimlərinin əsərlərindən istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Aparılan tədqiqatda əsas məhdudiyyət qismən metodoloji çatışmazlıq və informasiya bazalarına giriş əldə etmə çətinlikləri ilə bağlı olmuşdur.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Xüsusilə, tədqiqat zamanı aşağıdakı elmi nəticələr əldə edilmişdir:**

**- İnvestisiya fəaliyyətinin nəzəri və metodoloji aspektləri öyrənilmiş.**

**- İşğaldan azad olunmuş ərazilərin bərpa edilməsində, yeni quruculuq işlərinin aparılmasında yerli bankların investisiya imkanları təhlil edilmiş.**

**- Kommersiya banklarının investisiya fəaliyyətinin müasir vəziyyətinin təhlili aparılmış.**

**- İşğaldan azad olunmuş ərazilərin iqtisadi imkanları və investisiya qoyuluşunun əsas istiqamətləri təhlil edilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Əldə olunmuş nəticələr infrastruktur sahələrinin inkişaf etdirilməsində investisiyaların cəlb edilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, fəaliyyətlərin planlaşdırılması, Qarabağ regionunda yerli bankların investisiya fəaliyyətinə cəlb edilməsi imkanlarının artırılması istiqamətində faydalı ola bilər.**



***Açar sözlər: Qarabağ, investisya fəaliyyəti, banklar, iqtisadi inkişaf***

**"ASSESSMENT OF OPPORTUNITIES OF LOCAL BANKS TO INVEST IN THE RESTORATION OF THE LIBERATED TERRITORIES OF THE REPUBLIC OF AZERBAIJAN"**


## SUMMARY

**The actuality of the subject: At present, the restoration of the liberated territories is underway. Along with public investment in this direction, private sector investment can also play an important role in ensuring the formation of innovative development in the region. This issue has become one of the current issues in the economic policy of the state, and therefore needs a detailed study.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to consider the issues of infrastructure formation in the national economy on the example of the Upper Karabakh economic region.**

**Used research methods: In the process of writing the dissertation, methods of analysis of normative documents, information sources, scientific-theoretical approaches, basic concepts and terminological system related to investment activity, empirical analysis of statistical data, as well as methods of application of practical knowledge were used.**

**The information base of the research: The official data of the relevant state bodies and several literature and textbooks mentioned in the bibliography, as well as the works of economists of the republic and foreign countries in the relevant field were used in the study of the master's dissertation.**

**Restrictions of research: The main limitation of the study is partial methodological shortcomings and difficulties in accessing databases.**

**The novelty and practical results of investigation: In particular, the following scientific results were obtained during the research:**

**- Theoretical and methodological aspects of investment activity are studied.**

**- The investment opportunities of local banks in the restoration of the liberated territories and the implementation of new construction works were analyzed.**

**- A new competitive environment for attracting investment activities between banks has been studied.**

**- An analysis of the current state of investment activity of commercial banks was conducted.**

**- The economic opportunities of the liberated territories and the main directions of investment were analyzed.**

**Scientific-practical significance of results: The results obtained can be useful in identifying areas for attracting investment in the development of infrastructure, planning activities, increasing opportunities to attract local banks to investment activities in the Karabakh region.**



***Keywords: Karabakh, investment activity, banks, economic development***

## İXTİSARLAR

| | |
|---|---|
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **SES** | Su Elektrik Stansiyası |
| **AMB** | Azərbaycan Mərkəzi Bankı |

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ......................................................................................** | **8** |
| **I FƏSİL.** | **BANKLARIN İNVESTİSİYA ƏMƏLİYYATLARININ NƏZƏRİ METODOLOJİ ƏSASLARI.......................................** | **12** |
| 1.1. | İnvestisiya fəaliyyətinin nəzəri və metodoloji aspektləri................ | 12 |
| 1.2. | İnvestisiya, onun mahiyyəti və iqtisadi inkişafda rolu..................... | 17 |
| 1.3 | Banklarda investisiya siyasəti və onun xüsusiyyətləri.................... | 25 |
| **II FƏSİL.** | **AZƏRBAYCANDA BANKLARIN İNVESTİSİYA FƏALİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ.......................................................** | **28** |
| 2.1. | Bankların investisiya siyasətinin hüquqi-normativ bazası.............. | 28 |
| 2.2. | Bankların investisiya fəaliyyətinin müasir vəziyyətinin təhlili........ | 32 |
| 2.3 | Bankların investisiya əməliyyatlarının dinamik inkişafa təsirinin qiymətləndirilməsi.......................................................................... | 43 |
| **III FƏSİL.** | **İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASININ İNVESTİSİYALAŞMASINDA YERLİ BANKLARIN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ........................** | **49** |
| 3.1. | İşğaldan azad edilmiş ərazilərin iqtisadi imkanları və investisiya qoyuluşunun istiqamətləri............................................................ | 49 |
| 3.2. | İşğaldan azad edilmiş ərazilərin bərpasında yerli bankları investisiya fəaliyyətiin təkmilləşdirilməsi....................................... | 59 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR……………………………………..** | **66** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.......................** | **70** |
| | Cədvəllərin siyahısı……………………………………………….. | 75 |
| | Şəkillərin siyahısı………………………………………………… | 75 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Bazarın müasir konsepsiyasında investisiya yanaşması onun yeni, daha əsaslı nöqteyi-nəzərdən qiymətləndirilməsini tələb edir. Belə ki, yeni iqtisadi şəraitdə əvvəlki konkret sosial funksional yükdən azad olan investisiya anlayışı iqtisadi inkişafda mühüm rol oynayan real iqtisadi amilə, kapitala, investisiyaya çevrilir.

Ölkəmizdə investisiya mühitinin yaxşılaşması, ölkəmizin beynəlxalq hesabatlarda ön sıralarda yer alması Azərbaycanda investisiyaların etibarlı təminatının olduğunu təsdiqləyir. Bu aspekt iqtisadiyyatımıza investisiya qoyuluşunun ildən-ilə artmasına kömək edir. Müasir şəraitdə yaxın, orta və uzunmüddətli dövr üçün strateji proqnozlar istiqamətində milli iqtisadiyyatın prioritetlərinin müəyyən edilməsi çox vacibdir. Müstəqil dövlətin iqtisadi həyatının strukturunun yaxşılaşdırılması, modern inteqrasiya və qloballaşan dünya iqtisadi sistemində respublikamızın beynəlxalq əmək bölgüsünün prinsiplərindən önə gələn mövqeləri müvafiq prioritet istiqamətlər üzrə müəyyən edilməlidir. Digər tərəfdən, qlobal vəziyyətin, beynəlxalq müqavilələrin və bir sıra təhlükələrin spesifikliyinə görə, prioritetlər müəyyən edilərkən, təbii ki, yanacaq-energetika kompleksinin, eləcə də yardımçı sahələrin, infrastrukturun inkişafına üstünlük verilməlidir. Müasir inkişaf meylləri, ilk növbədə, investisiya fəaliyyətinin səmərəli həyata keçirilməsini və bu proseslərdə bank sektorunun hərtərəfli iştirakını tələb edir.

Hazırkı dövrdə işğaldan azad edilmiş ərazilərin bərpası işləri həyata keçirilməkdədir. Bu istiqamətdə dövlət investisiyaları ilə yanaşı özəl sektorun investisiyaları da əhəmiyyətli rol oynayaraq regionda innovativ inkişafın təmin edilməsində aparıcı rol oynaya bilər. Bu sual hazırkı dövrdə dövlətin iqtisadi siyasətində aktual məsələlərdən birinə çevrilmişdir, ona görə də ətraflı araşdırmaya ehtiyac vardır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqat işində investisiya fəaliyyətinin iqtisadi inkişafda yeri, işğaldan azad edilmiş ərzilərin bərpasında rolu müzakirə olunur, bu istiqamətdə strateji istiqamətlər araşdırılır. Bir sıra xarici və yerli mütəxəssislərin bankların investisiyalarının cəlb edilməsi ilə bağlı tövsiyələri

nəzərə alınmışdır.

Dissertasiya işinin yazılmasında S.Z. İsayev, Ə.S. Məmmədov, M.C. Atakişiyev, R.N. Nurəliyevanın investisiya məsələləri ilə bağlı tədqiqatlarından geniş istifadə edilmişdir. Bu mövzu Liventsev N.N., Kostyunina Q.M., Kuznetsoc B.T. və başqalarının əsərlərində də öyrənilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyanın məqsədi milli iqtisadiyyatda infrastrukturun formalaşması məsələlərini Yuxarı Qarabağ iqtisadi rayonu timsalında nəzərdən keçirməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur.

- infrastrukturun mahiyyəti, formalaşma zərurəti, iqtisadi inkişafda rolu, onun inkişafını təmin edən amilləri müəyyən etmək;
- regionlarda istehsal və sosial infrastruktur sahələrinin inkişafı meyllərini təhlil etmək, xarakterik xüsusiyyətlərini üzə çıxarmaq;
- Qarabağda regional infrastrukturun perspektiv inkişaf istiqamətlərini müəyyən etmək;
- istehsal və sosial infrastruktur sahələrinin inkişafının təkmilləşdirilməsi ilə bağlı təkliflərlə çıxış etmək.

**Tədqiqatın obyekti və predmeti:** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpasının investisiyalaşmasında yerli bankların investisiya imkanları tədqiqatın obyektini, bankların investisiya fəaliyyəti isə predmetini təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya işinin yazılması prosesində statistik məlumatların empirik təhlilindən, investisiya fəaliyyəti ilə bağlı normativ sənədlərin, elmi-nəzəri yanaşmaların, informasiya mənbələrinin, terminaloji sistemin və əsas anlayışların analizi metodlarından, habelə təcrübi əhəmiyyətə malik biliklərin tətbiq olunmasının analizi metodlarından istifadə olunmuşdur. Tədqiqatın mərhələləri kimi aşağıdakılar müəyyən olunmuşdur:

- Öncə tədqiqatın predmeti üzrə nəzəri əsaslar öyrənilmişdir. Bu hissədə investisiya prosesinin inkişafı və onun xüsusiyyətlərinə olan yanaşmalar nəzəri şəkildə təhlil olunmuşdur ki, bu da tədqiqatın məqsədlərinə çatmaqda əsas rolu oynamışdır. Bu

hissədə müqayisə etmə, qruplaşdırma və sistemləşdirmə metodlarından istifadə olunmuşdur.

- İkinci mərhələdə əldə olunmuş nəzəri-empirik məlumatların ümumiləşdirilməsi və sistemləşdirilməsindən irəli gələrək ölkəmizdə təhlil edilən sahəyə təsir göstərən əsas faktorların və tendensiyaların müəyyən olunmasına imkan yaratmışdır. Bu hissədə həmçinin, mövcud sahədə dəyişikliklərin tempi təsvir olunmuş, tərkib və təhlil induksiya və deduksiya, müqayisə kimi metodlardan istifadə olunmuşdur.
- Sonuncu mərhələdə təhlillərdən əldə olunan məlumatlar ümumiləşdirilmiş, analizi və qiymətləndirilməsi yolu ilə proqram yanaşması tətbiq olunmuşdur. Bunun nəticəsi kimi müvafiq sahədə islahatların sistemə salınması, proqram məntiqi quruluşu və yanaşmanın struktur, habelə işğaldan azad edilmiş ərazilərin bərpasında investisiya siyasətinin müxtəlif istiqamətlər üzrə inkişaf strategiyaları müəyyənləşdirilmişdir. Tədqiqatın sonunda araşdırmanın məqsədlərinə uyğun olaraq təkliflər formalaşdırılmışdır.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işinin hazırlanmasında İqtisadiyyat və Maliyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin statistik məlumatlarından, eyni zamanda müvafiq dövlət qurumlarının rəsmi məlumatlarından, ədəbiyyat siyahısında qeyd olunmuş bir neçə dərslik və ədəbiyyatlardan istifadə olunmuş, müvafıq sahədə xarici ölkələrin və respublikamızın iqtisadçı-alimlərin əsərləri, Azərbaycan Respublikasının bu sahənin təkmilləşdirilməsi və inkişafı üzrə qəbul etdiyi normativ sənədlər və hökumətin təsdiq etdiyi qanunvericilik aktları təqdim edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tətqiat işinin aparılmasında əsas məhdudiyyət məlumat bazası və metodoloji çatışmazlıq ilə bağlı olmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Magistr işinin elmi yeniliyi ərazilərin bərpa edilməsi, yeni infrastruktur layihələrin həyata keçirilməsi, regionda innovativ inkişafın təmin edilməsində bankların investisiya fəaliyyətinin istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Vurğulamaq yerinə düşər ki, bu xüsusiyyətlər barədə əsas nəzəri müddəalar formalaşdırılmış və işlənib hazırlanmışdır. Bundan əlavə, investisiya fəaliyyətinin xüsusiyyətlərinin və inkişaf modellərinin gələcəkdə

regionun iqtisadi durumuna təsir perspektivləri işlənib hazırlanmışdır. Xüsusilə, tədqiqat zamanı aşağıdakı elmi nəticələr əldə edilmişdir:

- İnvestisiya fəaliyyətinin nəzəri və metodoloji aspektləri öyrənilmiş.
- İşğaldan azad olunmuş ərazilərin bərpa edilməsində, yeni quruculuq işlərinin aparılmasında yerli bankların investisiya imkanları təhlil edilmiş.
- Banklar arasında investisiya fəaliyyətinə cəlb edilməklə bağlı formalaşan yeni rəqabət mühiti araşdırılmış.
- Kommersiya banklarının investisiya fəaliyyətinin müasir vəziyyətinin təhlili aparılmış.
- İşğaldan azad olunmuş ərazilərin iqtisadi imkanları və investisiya qoyuluşunun əsas istiqamətləri təhlil edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiqi sahələri:** Tədqiqat işinin praktiki əhəmiyyəti işğaldan azad edilmiş ərazilərin bərpası investisiyalaşmasında yerli bankların fəaliyyət imkanlarının öyrənilməsi ilə müəyyən olunur.

Əldə olunmuş nəticələr infrastruktur sahələrinin inkişaf etdirilməsində investisiyaların cəlb edilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, fəaliyyətlərin planlaşdırılması, Qarabağ regionunda yerli bankların investisiya fəaliyyətinə cəlb edilməsi imkanlarının artırılması istiqamətində faydalı ola bilər.

# I FƏSİL. BANKLARIN İNVESTİSİYA ƏMƏLİYYATLARININ NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. İnvestisiya fəaliyyətinin nəzəri və metodoloji aspektləri

İnvestisiya fəaliyyəti iqtisadiyyatın formalaşdığı ilk vaxtlardan nəzəri elm adamlarının və iqtisadçı mütəxəssislərin əsas diqqət etdikləri məqamlardan biri və ən başlıcasıdır. İnvestisiya fəaliyyəti qeyri-sabit iqtisadi şəraitdə müxtəlif amillərin təsiri ilə müşahidə edilən dinamik, çoxşaxəli proses olaraq iqtisadi nəzəriyyənin mühüm tədqiqat mərkəzi kimi qəbul edilir.

İnvestisiya anlayışı latın mənşəli söz olub, səmərəliliyə nail olmaq deməkdir. İnvestisiya fəaliyyətinin müəyyənləşdirilməsinə mikro və makro səviyyələrdə yanaşmalarını bir-birindən fərqləndirsək, aralarındakı əsaslı fərqlilikləri aydın müşahidə edə bilərik:

1. İnvestisiyanın obyektlərini şərh edərkən vahidliyə rast gəlinməməsi. Yəni, qtisadi praktikada qazanc əldə etmək üçün xərclənən istənilən pul investisiya hesab olunur.

2. İnvestisiyanın fəaliyyətindən gəlir çoxşaxəli formalarda müəyyənləşdirilir. Makro səviyyədə sahibkarlıq iş prinsipindən əldə olunan və iqtisadiyyatın bütün sahələrinin inkişaf etdirilməsinə yönəldilmiş mənfəət hesab edilir.

3. İnvestisiyanın fəaliyyət prinsipləri fərqli formalarda müəyyənləşdirilir ki, müəssisənin istehsal prosesi çərçivəsində qazanca sahib olan hər hansı bir fəailiyyət buraya aiddir.

İnvestisiyaların həcmi iqtisadi yüksəlişin başlıca meyarı olaraq qəbul edilir. Məcmu investisiya amortizasiyadan çox deyilsə, deməli təkrar istehsal məhduddur; bərabərdirsə, onda sadə çoxalma prosesi müşahidə edilir; böyükdürsə, geniş miqyaslı çoxalma prosesi baş verir. İnvestisiyanın nəzəriyyəsiylə praktik investisiya fəaliyyəti arasındakı bəzi ziddiyyətlərin mənbəyi də budur. Bu ziddiyyətlərin səbəblərini öyrənmək üçün qabaqcıl iqtisadi məktəblərdə investisiya nəzəriyyələrinin necə inkişaf etdiyinə və investisiya haqqında təsəvvürlərə nəzər salaq. İlk olaraq merkantilizmdən başlayaq.

Məlumdur ki, merkantilizm nümayəndələri milli sərvəti pulla, pulu isə qiymətli metallarla eyniləşdirirdilər. Xarici ticarət (aktiv ticarət balansı ilə) qızıl və gümüş sikkələrin ölkəyə daxil olmasını təmin edən sərvət mənbəyi hesab olunurdu. Bu ideyanı ingilis iqtisadi ekspert T. Mann XVII əsrin 30-cu illərində yazdığı elmi kitabında irəli sürmüşdür (Игонина. Л.Л. М., 2005., 672 с.).

Gəlirin artması istehsal prosesinin həyata keçirilməsinə pulların xərclənməsini tələb etməsi prinsipi iqtisad məktəbinin nümayəndələrinə yaxşı tanışdır. Merkantilist nümayəndələr pul vəsaitinə kapitalın bir növü olaraq baxırdılar və düşünürdülər ki, pul əmtəəyə oxşamalı və fermerlərin, sənətkarların məşğulluğuna xidmət etməlidir. Onlar qətiyyən investisiya sözünü işlətmirdilər, lakin onlar başa düşürdülər ki, sərvət (xəzinə) toplamaq insanların başlıca tələbi deyil, sadəcə təkrar istehsal prosesinin dövr etməsidi. Merkantilizmin nümayəndələri iqtisadiyyatdakı mənfi tendensiyaları aradan qaldırmaq və sərvətləri artırmaq üçün istehsala pul yatırmaq zərurətini anlayırlar.

Avropalı iqrisadçı F. Kene investisiyalara aid maddi göstəricini dəqiqləşdirərək onları ilkin və illik ödənişlərə bölmüşdür (Франсуа Кэне. М., 1960, с.256). F. Kene ilkin ödənişlərə binaların və iş heyvanlarını, təsərrüfat texnikasını və s. almaq üçün lazım olan xərcləri aid edib və bu məsrəfləri məhsul becərilməsi məqsədilə on beş illik dövriyyə fondu olaraq izah edir, illik ödənişlərə amma toxum ehtiyatının əldə edilməsi, fermerlərin maaşları və digər bu kimi xərclər daxildir. İqtisadçı alimə görə, təsərrüfat sahiblərinin bir il üçün tələb olunan xərcinə ilkin ödənişlərin onda biri və bütün illik ödənişlər aid olmalıdır. Ödənişlərin hər ikisi arasındakı fərq ödənilən pul məhsuldar kapitalın, yəni bilavasitə istehsal prosesinə qoyulan kapitalın elementinə çevrildikdə baş verir. Merkantilist təbliğçilərinin fikirlərinə yaxşı münasibət bəsləməyən F.Kene bazarda təklif olunan pul və ya əmtəələri "ilkin" və ya "illik" ödənişlər adlandırmırdı. Beləliklə, fiziokratlar investisiyaya yalnız kənd təsərrüfatında istifadə olunan kapitalın məhsuldar forması kimi istinad edirdilər.

Ölkənin iqtisadi inkişafında kapitalın rolunu şərh edən Adam Smit deyirdi ki, biz xalq həyatını əhatə edən iki dövrü qarşılaşdırarkən əgər müşahidə etsək ki,,

xalqın əməyi nəticəsində torpaqları yaxşı becərilir və məhsuldarlıq artır, manufaktura tipli müəssisələrin sayları artır və nəticədə gəlir və mənfəətləri çoxalır, ticarət münasibətləri sıxlaşır, demək ki, xalqa məxsus sərvətlər müqayisə edilən dövrlər arasında çoxalmışdır..” (Смит А., 1776, М., 1993, s. 253). A.Smit kapitalın çoxalmasını xalqa məxsus sərvətinin artması ilə əlaqələndirir və göstərir ki, belə artım kapitaldan istifadənin aşağıda göstərilən metodlarla həyata keçirilir:

1. İnsanların istifadəsi və tələbatlar məqsədi ilə lazım olan xammal istehsalı;
2. İlkin xammaldan emal vasitəsilə yeni məhsul alınması;
3. Xammal və istehlak məhsulların aparılması;
4. Xammal və istehlak məhsulların alıcıların tələbatına uyğun miqdarda paylanması.

Bu yollarla istifadə olunan kapital milli sərvəti artırmaqla yanaşı, sahibinə mənfəət də gətirir. A.Smit kapitalın bu üsullardan birində və ya bir neçəsində istifadə olunduğu təsərrüfat subyektlərini məhsuldar qüvvələr hesab edirdi (Смит А., 1776, М., 1993, s. 257). Onların əməyi istehsal olunan məhsulun dəyərini və mənfəətini (yaradılan dəyərin bir hissəsini) artırır.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, investisiyalar həm milli sərvəti artırır, həm də sahibkara qazanc götürmək imkanları verir. A.Smitə görə qazanc üçün istifadə edilən hər hansı istehlak əşyası sahibkar üçün kapital sayılsa da, ictimai mənada kapital hesab olunmamalıdır və ikili xarakter daşıyır, yəni fərdi olaraq kapital olsa da cəmiyyətə görə kapital olaraq qəbullanmaması da mümkündür. A.Smit belə tələbləri ehtiva kapitalın aşağıdakı formalarını qeyd etmişdir:

- fayda verəcək dəzgah və maşınlar;
- təkcə mülkiyyətçiyə deyil, həm də icarəçiyə gəlir gətirən binalar;
- torpağın gübrələnməsinə, suvarılmasına və bərpası üçün istifadə edilən hər bir şey;
- əhalinin əldə edilmiş yararlı bacarıqları;
- yuxarıda qeyd olunan pul vəsaitinin, yəni əsas kapitalın dövriyyəsinə yol açan kapitl (Смит А., 1776, М., 1993, s. 374).

Buna görə insanların sərvəti və sahibkara pil qazandıran kapitalın bərpası və artırılması xərcləri milli səviyyə ilə kapitala şamil olunur. A.Smitin fikrincə, kapital

qoyuluşunun digər bir şəkli də sahibkara qazanc qazandırsa da, milli sərvətə görə sabit qalan malın alınmasıdır ki, onların əsas mənbəyi qeyd edilən sferalarda hərəkət edən istehsalçı qüvvələrin yaratdığı dəyərdir. Bu halda gəlirdə artım olmur, yalnız milli gəlirin növbəti dəfə bölüşdürülməsi baş verir ki, bu zaman da yeni heç bir dəyər əmələ gəlmir.

Daha bir iqtisadçısı alim A. Marşall fərqli motivlərə məxsus insanları kapitala bazar tələbatlarının subyektləri olaraq görürdü. İlk öncə fiziki şəxslərin əmanətləri ilə müəyyən edilən kapital təklifinin formalaşması prosesinə nəzər salaq. A.Marşall qənaətdən danışarkən gəlir və istehlak xərcləri arasındakı fərqi nəzərdə tuturdu. Depozit təşkilatları ictimayətin istənilən nümayəndəsinin olması mümkündür. Marşalın fikrincə, icarə haqqı, frilanserlərin və işçilərin qazancları mühüm qənaət mənbəyi sayıla bilər. Əmanətlərin tənzimlənməsi vərdişlər, təmkinli vərdişlər və gələcəyi görmək bacarığı, qohumluq əlaqələrinin möhkəmliyi, məktəb yaşlıların təhsil alması məqsədilə yığımlar, qocalıq və ahıllığın təmin edilməsi kimi amillərın iştirakı ilə həyata keçirilir. A.Marşall bank faizlərinin faiz dərəcəsini növbəti illərin ehtiyacların ödənilməsinə maddi resursların töhfəsi kimi qiymətləndirir və depozitlərin artımının faiz dərəcələrinin artması ilə bağlı olduğunu göstərdi. Əgər insan öz sərvətini istehlak etmirsə və müəyyən faizdən götürüləcək qazanc qarşılığında başqa birinə verirsə, faiz üçün müəyyən edilmiş əlavə göstəric yüksək olduğu qədər yığım vəsaiti də eyni dərəcə ilə artar.

A. Marşall eyni zamanda borcalanların xarakterik çatışmazlıqlarını da qeyd edərək aşağıda deyilənlərlə əlaqələndirdi:

1. Dəqiqliyin, enerjinin, borc kapitalı ilə işləmək üçün stimulların olmaması;

2. Biliyin olmaması;

3. Fərziyyə. (Маршалл А.М.: Прогресс, 1993, с. 112).

Nəhayət, bütün iqtisadi-elmi nəzəriyyədə birinci dəfə əmlakın bankların əmanətlər üzrə faiz dərəcələrinə təsiri fikri ortaya çıxdı. İstehlak bazarının digər əsas elementi kimi dəyərləndirilən tələb borcalanın yararlandığı kapitaldan gözlədiyi gəlir dərəcəsi ilə idarə olunur. A.Marşall kapitalın gəlirlilik normasının öyrənilməsində sahibkarın məsrəfinə və diskontlaşdırma problemlərinə (kapital

qoyuluşunun və onun zamanla faydalarının qiymətləndirilməsinə) xüsusi diqqət yetirmişdir. Vəsait qoyuluşu o halda reallaşır ki, müəssisə sahibi əlavə gəlirə sahib olur. Marşala görə, ehtiyatlı sahibkar gəlirlilik səviyyəsinə çatana qədər istehsala sərmayə qoyur. İnvestisiyadan əldə olunan gəlirin dərəcəsi investisiyanın dəyərinə bərabər olan səviyyə kimi müəyyən edilir, yəni gəlir dərəcəsi "sıfırdır". "İnvestisiya gəliri" anlayışı mübahisə doğuracaq göstərici olsa da, Marşal investisiyanın əsas şərtini qeyd etmişdir: məsrəflərin və nəticələrin müqayisəsi. O, sahibkarın gələcəkdə gəlir əldə etmək üçün çəkdiyi bütün xərcləri investisiya prosesinə daxil edib. (Sxem 1). Marşal vəsaitin pul şəklini ümumi kapitala deyil, eyni zamanda istehsal vasitələri ilə uzunmüddətli istehlak vasitələri arasında fərq qoymadan kapitala aid edirdi.

**Sxem 1: Bazar kapitalı və investisiya amilləri**




**Mənbə:** Маршалл А.М.: Прогресс, 1993, с. 132.

Beləliklə, müəssisə və makro səviyyələrdə investisiya proseslərinin xarakterindəki qarşıdurmalar vəsait qoyuluşunun nəzəri əsaslarının tam əhatə olunmamasına gətirib çıxarır. Bu baxımdan bir çox amillər qeyd edərək təklif kimi irəli sürmək mümkündür.

1. Fiziki və insan resursları, maddi resurslar, biliklər kimi infrastrukturları əhatə edən istehsal amillərinin əldə edilməsi üçün sərf olunan vəsaitin investisiya xərcləri olaraq qəbul olunması;
2. Vəsait qoyuluşu məsrəfləriylə investisiyaya qoyulan tələb qarşılaşdırılmasında nəzəri fərqlənmənin aşkarlanması;
3. Vəsait qoyuluşu tələbini "planlaşdırılmış" məsrəflərə bərabər tutmaq olmaz. Beləliklə, müxtəlif mənbələrdən gözlənilən pullar deyil, real pul tələbin formalaşması üçün əsasdır.
4. Müstəqil iqtisadi kateqoriya kimi investisiyaya olan tələb sərbəst nağd pul anlayışı ilə eyni deyil.
5. Sərbəst nağd puldan istifadənin alternativləri var və sərmayə qoymaq da bu variantlardan biridir.
6. İstehsal göstəricilərinin əldə edilməsi ilə bağlı investisiya tələbi realvəsait qoyuluşu meyarı olaraq qəbul olunmamalıdır. Real sərmayələrə tələbatla yanaşı, tələb olunan həcmdə investisiya məhsullarının olması da tələb olunur.

### 1.2. İnvestisiya, onun mahiyyəti və iqtisadi inkişafda rolu

Bazarın müasir konsepsiyasında investisiya yanaşması onun yeni, daha diqqətli nöqteyi-nəzərdən qiymətləndirilməsini tələb edir. Yeni iqtisadi şəraitdə əvvəlki konkret sosial və funksional yükdən azad olan investisiya anlayışı iqtisadi inkişafda mühüm rol oynayan real iqtisadi amilə, kapitala, investisiyaya çevrilir. Qərb metodoloji yanaşmasında investisiya kateqoriyasının tərkibinə və məzmununa vahid yanaşma olsa da, müəyyən fərqlər mövcuddur.

İnvestisiya fəaliyyəti ilə bağlı mövcud qanunvericilikdə bu konsepsiyanın mahiyyəti Qərbin münasibətlərindən bir qədər fərqlidir. Qanunvericilik səviyyəsində investisiyaya bir anlayış olaraq daha geniş nəzər salmaq və onun növlərinə görə sistemləşdirmək məqsədəuyğundur:

- iqtisadi və ya birbaşa investisiyalar - bu investisiyaların obyekti əsas fondların və dövriyyə vəsaitlərinin təkrar istehsalına yönəldilmiş kapitala aiddir və genişmiqyaslı emal üçün maddi baza yaradır.

- maliyyə investisiyaları - bu investisiyaların mənbəyi maliyyə aktivləri olsa da yeni istehsal prosesləri və imkanlarının yaradılmasını nəzərdə tutmur.

- digər investisiyalar əqli kapitala, əqli mülkiyyətə, müəllif hüquqlarına investisiyalar və onların yaradılması, əldə edilməsi kimi xarakterizə olunur.

İnvestisiyaların təsnifatına dair müasir baxışlar göstərir ki, indiki dövrdə investisiyaların hamısı yeni istehsal prosesinin genişləndirilməsinə təsir göstərmir, iqtisadi investisiyalar və kapital qoyuluşları isə bilavasitə istehsalla bağlıdır.

İnvestisiyalar mənfəətə yiyələnmək üçün müəssisə sahibliyi və ya digər fəaliyyətə qoyulan maliyyə vəsaitlərindən, habelə maddi və intellektual resurslardan ibarətdir. Bu vəsait və resurslara əsasən aiddir:

- məqsədli olaraq təşkil edilmiş bank depozitləri, kreditlər və qiymətli kağızlar-səhmlər;
- daşınmaz və daşına biləm mal-mülk (, tikililər, avadanlıqlar və digər maddi sərvətlər);
- düzgün tərtib edilmiş elmi, eksperimental və digər intellektual resurslar;
- təbii sərvətlərdən, bina obyektlərdən, tikililərdən, avadanlıqlardan istifadə hüququ;
- digər mənbələr.

İnvestisiyalar fabriklərin, məişət binalarının tikilməsi, texnika və dəzgahların, habelə istehsal olunsada, hələ də istifadəyə verilməyən mal və materialların alınmasıdır.

Maliyyə nöqteyi-nəzərindən investisiyalar bütün növ aktivlər - mənfəət əldə etmək məqsədilə təsərrüfat (iqtisadi) fəaliyyətə yönəldilmiş vəsaitlərdir. İqtisadi nöqteyi-nəzərdən investisiyalar əsas (bəzi hallarda hətta dövriyyədə olan) fondların yaradılması, genişləndirilməsi, restrukturizasiyası və eyni zamanda yenidən strukturlaşdırılması xərcləridir. Əslində investisiya anlayışına münasibət hələ də birmənalı deyil. İnvestisiya nağd pul və ya bank hesabı müqabilində xalis maliyyə əməliyyatı deyil, avadanlıq və yeni zavodun tikintisi kimi real aktivlərin alınmasıdır.

Təbii ki, investisiya anlayışına mənfəət əldə etməyə (və ya sosial məqsədə çatmağa) yönəlmiş investisiyalar daxildir. Bu investisiyalara maliyyə vəsaiti, texnologiya, avadanlıq və əqli mülkiyyət daxildir.

İnvestisiyalar iqtisadiyyatın bütün sahələrinə uzunmüddətli investisiya qoyuluşu prosesini əks etdirir. Digər tərəfdən, investorlara görə investisiyaların müəyyən qruplaşdırmalar da mövcuddur:

- sənaye strukturlarının yaradılmasına qoyulan investisiya;
- ehtiyatların təşkil edilməsinə qoyulan investisiya;
- kadrların hazırlanmasına və təkrar hazırlanma üçün investisiya qoyuluşu;
- elmi xidmət (Кузнецов Б. Т. М., 2012 г., 421 с.).

İnvestisiyanı aşağıdakı kimi təhlil etmək olar. İnvestisiya müəyyən bir müddət ərzində iqtisadiyyatda mövcud olan əsas vəsaitlərin və təchizatların tədarükünə xalis əlavədir. İqtisadiyyat müəyyən vaxtda müəyyən kapital malları və təchizat ehtiyatına malikdir. Məsələn, bir ölkənin dəmir və avtomobil yolları, hava limanları, su anbarları, elektrik xətləri, gəmiləri, təyyarələri, fabrik və zavod daxilindəki bütün maşın, alət və avadanlıqları, tikililəri ölkənin əsas vəsaitlərini və ləvazimatlarını təşkil edir. Dünyanın qabaqcıl ölkələrin böyük səhimdarları kadr hazırlığına investisiya qoymalarına dünya bazarında öz mövqelərinin möhkəmlənməsinin mühüm aspekti hesab edirlər. İqtisadi inkişafın intellektual məhsulun ona qoyulan investisiyalardan asılı olduğu getdikcə daha aydın görünür.

Formalaşmanın xarakterindən asılı olaraq, investisiyalar avtonom və induksiyalı olaraq fərqləndirilir. Faiz dərəcələrindən və ya milli gəlir səviyyəsindən asılı olmayaraq, muxtar investisiyalar adətən xarici amillərlə idarə olunur. Bu, ilk növbədə texniki tərəqqi ilə bağlı investisiyalar, xarici bazarlarda mövqelərin möhkəmləndirilməsi, əhalinin artımı və s. amillərə aid edilə bilər. Bu investisiyalar iqtisadi artımı stimullaşdırır. Gəlirlərin artması nəticəsində yaranan sərmayələr həmin impulsların üzvi davamıdırsa, dinamik inkişafı hesab edilə bilər.

İnvestisiya bazarının dinamikası onun səmərəliliyini də müəyyən edir. Məlumdur ki, sərmayələr tənəzzüldə olan müəssisələrdən (sektorlardan) digər şərtlər bərabər olduqda daha gəlirli olanlara axır. Beləliklə, istehsala qoyulan investisiyaların həmişə riskli olmasını və uzun müddət əhatə etməsini təmin etmək lazımdır. Məsələn, elə bir mühit yaradılmalıdır ki, istehsala qoyulan investisiyanın qaytarılması alternativ investisiyalardan (bank əmanətləri, zərgərlik məmulatları və

s.) daha yüksək olsun.

İnvestisiya gəlir əldə etmək üçün uzunmüddətli olaraq kapitalın qoyulmasıdır. Dünya ölkələrinə inkişafından asılı olmayaraq il ərzində 2,0-3 trln dollar ilə sərmayə qoyulur. Dünya iqtisadiyyatında hər il 2,0-3 trln. ABŞ dolları ilə investisiya qoyulur. Əsas ixracatçı ölkələr dünyanın 7 ən inkişaf etmiş sənaye ölkəsi - ABŞ, Fransa, Almaniya, İngiltərə, İtaliya, Yaponiya və Kanadadır (Абалкин Л. М., 2003., 364 с.). ABŞ dünyanın ən böyük ixracatçısı və eyni zamanda investorudur. İnvestisiyalar əsasən ayrı-ayrı ölkələrdə islahatlara, o cümlədən istehsalın və xidmətlərin özəlləşdirilməsinə sərf olunur. Dünyanın müxtəlif ölkələrində özəlləşdirmə prosesi gedir. Bu proses Hindistan və Vyetnamda, Cənubi və Latın Amerikasında, Qərbi və Şərqi Avropada, Baltikyanı ölkələrdə və MDB-də davam edir. Dünya Bankı və BVF bu prosesi tənzimləyir.

Kapital yaradan investisiyaların strukturunda əsas yeri əsas kapitala qoyulan investisiyalar tutur, o cümlədən sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət və s. daxildir. İqtisadi kateqoriya kimi investisiyalar hər bir ölkənin normal iqtisadi inkişafını təmin edən bir sıra mühüm funksiyaları yerinə yetirir. Makroiqtisadi səviyyədə investisiyalar aşağıdakı sahələrə əsaslanır:

1. ictimai istehsalda struktur dəyişiklikləri və milli iqtisadiyyatın tarazlı inkişafı;
2. sənayedə zəruri xammal bazasının yaradılması;
3. hərtərəfli təkrar istehsal siyasətinin aparılması;
4. milli məhsulların keyfiyyətinin yüksəldilməsi və rəqabətliyinin təmin edilməsi;
5. sosial infrastrukturun qurulması, səhiyyə, mədəniyyət, təhsil kimi sahələrdə yaranmış problemlərin həlli;
6. təbiətin mühafizə olunması;
7. hərbi sferanın inkişaf etdirilməsi;

Qeyd edək ki, dövlət belə məqamlarda bütün yerli və xarici investisiyaların qorunmasına təminat verir. Eyni zamanda investorlar (xarici rezidentlər) üçün bərabər iş şəraiti təmin edilir ki, bu da bərabərliyin pozulmasını istisna edir, investisiyaların effektiv idarə olunmasına gətirib çıxarır.

İnkişaf etməkdə olan Azərbaycan Respublikasının iqtisadiyyatına qoyulan

investisiyalar ilk növbədə iqtisadi yüksəlişi, çoxsaylı iş obyektlərinin yaradılması, büdcə gəlirlərinin planlı istifadəsi üçün böyük əhəmiyyət kəsb edir.

Son illər Azərbaycan investisiya mühitinin yaxşılaşdırılması və ölkə iqtisadiyyatının xarici investorlar üçün daha cəlbedici olması istiqamətində mühüm nailiyyətlər əldə edib. İnvestorların hüquq və mənafelərinin, mülkiyyət toxunulmazlığının qorunması, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması məqsədilə bir sıra qanun və normativ hüquqi aktlara dəyişikliklər edilib.

Ölkə başçısı ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı sərəncam imzalayıb. Yoxlamalar haqqında qanun layihəsi hazırlanıb, ciddi beynəlxalq təşkilatlar ölkəmizdə biznes sferasını yaxşılaşdırılmasına yönəlmiş dəyişiklikləri tanımağa başlayıb.

Azərbaycan hökuməti yaxşı bilir ki, ölkəmizə sabit xarici sərmayə axınını təmin etmək üçün onların qorunmasına xüsusi diqqət yetirilməlidir, bu şirkətlərə qarşı qanunsuzluğa yol verilməməlidir. Ona görə də son illər investisiyaların qorunması, istehsal müəssisələrinin qeydiyyatı istiqamətində mühüm addımlar atılmış, bunun nəticəsində Azərbaycanda investisiyaların həcmi artmış, 2003-cü ildən isə artım sürətlənmişdir. 1995-ci ildən Azərbaycan iqtisadiyyatına qoyulmuş 97 milyard dollar investisiyanın 87 faizi 2003-cü ildən indiyədək qoyulub. 2003-cü ildən indiyədək qoyulmuş investisiyaların 45,1 milyard dolları və ya 53,5 faizi xarici investisiyalardır. Bunun 66%-i və ya 30,6 milyard dolları birbaşa xarici investisiyalardır. (Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları. Bakı, 2021. səh.47).

Əslində, investisiya kapitallaşma və investisiya üçün hazır mənbələr və ya vəsaitlərin təmin edilməsi prosesidir. Bildiyiniz kimi, investisiyanın mənbəyi əmanətdir. Bu dövrdə iqtisadiyyata daxil olan bütün istehsalın və ya milli gəlirin nisbətən böyük hissəsi istehlaka yönəldilir, qalan hissəsi isə qənaət edilir.

Kredit təşkilatlarına axan bu vəsaitlər sahibkarlar tərəfindən investisiya qoyuluşu üçün götürülür. İnvestorun işi investisiyaya hazır olan bu vəsaitləri xərcləməklə investisiya tədbirini təşkil etməkdir. Məsələn, fabrik tikiləcək ərazini öz üzərinə götürür, lazımi binaları tikir, istehsalı təşkil edəcək maşın, alət və

avadanlıqları quraşdırır və istehsalı təşkil edən bütün bu tənzimləmələri qurur. Sahibkarın bu fəaliyyətləri investisiya fəaliyyəti adlanır. Bu iş üçün çəkilən xərclər investisiya xərcləridir. Bu məsrəflər nəticəsində iqtisadiyyat yeni və əlavə istehsal həcmi qazanır. Bu halda investisiyaya hazır olan vəsaitlər investisiya prosesindən keçdikdən sonra əsas vəsaitlərin və təchizatların tədarükünə çevrilir. Bu izahatlar da göstərir ki, investisiya məsələsinin bir neçə aspekti var. Bununla belə, investisiya nəzəriyyəsi ilə bağlı makroiqtisadi təhlil bir çox cəhətləri olan investisiya məsələsinin xərc tərəfini vurğulayır.

İqtisadiyyatda gəlirlərin və məşğulluğun artırılmasında əsas element olan sərmayədən bəzən bir anlayış kimi istifadə edilir. Məsələn, mövcud fabrikin, ərazinin və ya sahənin alınması investisiya kimi müəyyən edilir. Əslində belə xərclərlə iqtisadiyyatda yeni istehsal həcmi təşkil olunmur, yalnız mövcud əmtəə və xidmətlər əl dəyişir. Mövzuya mikro səviyyədə baxsaq, bu hadisə zavodu alan şirkət üçün bir sərmayədir. Amma makro səviyyədə düşünəndə görürük ki, bu, sadəcə olaraq zavod sahibinin dəyişməsidir. Eynilə, daşınar əmlakın əldə edilməsi investisiya deyil. Səhmdarın xərcləri investisiya xərcləri deyil. Buna iqtisadi dildə plazman deyilir. Plazman müəyyən bir işə müəyyən fondun ayrılması deməkdir. Onların alqı-satqısı iqtisadiyyatda mövcud istehsal gücünə sahibliyin dəyişməsindən başqa bir şey deyil. Məsələyə yenidən mikro səviyyədə baxdıqda, alıcının hər hansı portativ dəyərə sərmayə qoyduğunu düşünə bilərik. Ancaq bu daşınar dəyərləri satan şəxs də eyni miqdarda mənfi investisiya etmiş olur.

İnvestisiyalar istehsal gücünün genişlənməsinə uzunmüddətli təsir göstərir və mövcud istehsal güclərində mühüm rol oynayır.

İnvestisiyalar mikroiqtisadi səviyyədə də mühüm rol oynayır.

Mikroiqtisadiyyata investisiyalar nə üçün vacibdir?

1. istehsal proseslərinin inkişafı;

2. fondların həddindən artıq köhnəlməsinin qarşısının alınması;

3. istehsalın texniki səviyyəsinin qaldırılması;

4. İstehsal müəssisələrinin mallarının keyfiyyətinin yüksəldilməsi və onun rəqabət qabiliyyətinin təmin edilməsi;

5. ətraf mühitin mühafizəsinin təşkili;

İnvestisiyaların ətraflı izahını N.A. Blank verilmişdir. O, investisiya obyektlərinə, investisiyalarda iştirakın xarakterinə, investisiya müddətinə, investisiya resurslarının mülkiyyət formasına və ərazi xüsusiyyətlərinə görə investisiyaları təsnif edir (Бланк Н.А., М., 2012 г., с.156).

Ümumi təsnifatla yanaşı, investisiyaların daxili təsnifatı da böyük əhəmiyyət kəsb edir. Belə ki, müəssisədaxili təsnifat investisiya nəticələrinin öyrənilməsi baxımından real mənzərə yaradır. Əslində bu təsnifat müəssisənin investisiya portfelini şərh edir. Minimum risklə maksimum mənfəət əldə etmək üçün investisiya portfelinin optimallaşdırılması müəssisənin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Ümumiyyətlə, investisiya axını iki əsas mərhələni əhatə edir. Birinci mərhələ "investisiya resursları – qoyulmuş vəsaitlər" investisiya fəaliyyətinin məzmunudur. İkinci mərhələ "İnvestisiya qoyuluşu - investisiyaların nəticəsi" xərclərin gəlirə, mənfəətə və ya ödəniş səviyyəsinə, gəlirə nisbətini təcəssüm etdirir. Bu fəaliyyət milli iqtisadiyyatın tələblərinə, müasir inteqrasiyaya, eləcə də qloballaşmanın makroiqtisadi göstəricilərinə cavab vermək üçün nəzərdə tutulmuş uzunmüddətli iqtisadi siyasətin tərkib hissəsidir.

Strateji konsepsiyanın reallaşması üçün ilk növbədə milli iqtisadiyyat daxilində proqnozlaşdırılan artım templəri konyuktura ilə müəyyən edilməlidir. Daha sonra bu ehtiyacların əmək bölgüsü prinsiplərinə uyğun olaraq xaricdən "necə və hansı vasitələrlə" əldə edilməsi məsələsi müqayisəli əsasda hesablanmalıdır. Nəhayət, yerli istehlakçılar tərəfindən bu mal və xidmətlərin daxili istehlakının faktiki səviyyəsi və onların xarici bazarlara çıxışı aydınlaşdırılmalı və "kimin üçün" əsasında qərar verilməlidir. Beləliklə, tələb və təklif, qiymət dəyişkənliyi, rəqabət mühitində fəaliyyət göstərən iqtisadi sistem "investisiya-istehsal-satış-mənfəət-əmanət-investisiya" kimi bütün mövcud mərhələlərdən keçərək inkişaf edir.

Beləliklə, investisiyalar mühüm iqtisadi kateqoriya kimi sadə və irimiqyaslı təkrar istehsalda, struktur transformasiyasında, mənfəətin maksimumlaşdırılmasında və bununla da həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyədə bir çox sosial

problemlərin həllində mühüm rol oynayır.

Müasir şəraitdə yaxın, orta və uzunmüddətli dövr üçün strateji proqnozlar istiqamətində milli iqtisadiyyatın prioritetlərinin müəyyən edilməsi çox vacibdir. Müstəqil dövlətin iqtisadi həyatının strukturunu müvafiq prioritetlər səviyyəsində təkmilləşdirmək, beynəlxalq əmək bölgüsü prinsipləri əsasında müasir inteqrasiya və qloballaşan dünya iqtisadi sistemində ölkəmizin mövqeyini müəyyən etmək lazımdır. Digər tərəfdən, konkret vəziyyət, beynəlxalq müqavilələr və bir sıra təhlükələrlə bağlı prioritetlər müəyyən edilərkən, təbii ki, yanacaq-energetika kompleksinin, o cümlədən yardımçı sahələrin və infrastrukturun inkişafına üstünlük verilməlidir. Müasir inkişaf tendensiyaları, ilk növbədə, investisiya fəaliyyətinin səmərəli həyata keçirilməsini və bank sektorunun bu proseslərdə hərtərəfli iştirakını şərtləndirir.

Eyni zamanda, ölkənin iqtisadi həyatını birtərəfli inkişaf meyllərindən qorumaq üçün qeyri-neft sektorunun aparıcı sahələrinə, özəl sektora və kənd təsərrüfatına ciddi diqqət yetirilməlidir. Çünki bu, bir tərəfdən regionlarda məşğulluğu artırmaqla əhalinin lüzumsuz miqrasiyasının qarşısını alır, digər tərəfdən aqrar sektor güzəştli şərtlərlə işləyərək, iqtisadi təhlükəsizlik problemini həll edir, ölkənin ərzaq idxalından asılılığına son qoyur.

## 1.3. Banklarda investisiya siyasəti, onun xüsusiyyətləri

Xarici ədəbiyyatlarda "investisiya" termini adətən qiymətli kağızlara uzunmüddətli investisiya qoyuluşu başa düşülür. Bu, mövcud olan real iqtisadi münasibətlərin əksidir, çünki bazar iqtisadiyyatında investisiya mexanizmləri qiymətli kağızlar bazarı ilə birbaşa bağlıdır.

Bank sektorunda investisiya fəaliyyəti aşağıdakı iki növ xidməti göstərən biznes kimi qəbul edilir:

- qiymətli kağızların ilkin bazara çıxarılması və ya qiymətli kağızların buraxılması yolu ilə pul vəsaitlərinin artırılması;

- təkrar bazarda qiymətli kağızların mövcud alıcı və satıcılarının koordinasiyası.

Sovet iqtisadi ədəbiyyatlarında bankların investisiya fəaliyyəti uzunmüddətli kredit kapitalının səfərbər olunması anlamına gəlirdi. Belə izahat bank fəailiyyətinin təşkili, investisiya xüsusiyyətləri ilə şərtlənirdi. Bir sözlə, qiymətli kağızlar bazarının fəaliyyəti ilə bağlı heç bir investisiya fəaliyyəti ola bilməzdi.

Bazar münasibətlərinə keçid və fond bazarının formalaşması kimi bank investisiyalarının səhimlərə uzunmüddətli investisiyalar kimi şərh edilməsi ölkəmizin iqtisadi ədəbiyyatında öz əksini tapmışdır. Beləliklə, V.M. Usoskinin fikrincə bank investisiyaları bir ildən çox ödəmə müddəti olan qiymətli kağızları əhatə edir.

İnvestisiyaları iki şəkildə başa düşmək olar: kommersiya və mənfəətə sahib olmaq məqsədi ilə vəsaitlərin müvəqqəti yerləşdirmə prosesi.

Bank sektoruna investisiyalar iqtisadi məzmun kəsb edir. Mikro-iqtisadi nöqteyi-nəzərdən bankın investisiya fəaliyyətinə bankın təsərrüfat subyekti olaraq baxmaq olar.Amma bankların makroiqtisadi rolunun oynayan digər bir tərəfi də mövcuddur ki, bununla da banklar bazar şəraitində təsərrüfat subyektlərinin maliyyə və kredit şəklində investisiya ehtiyaclarının reallaşdırılmasına, əmanətlərin investisiyaya çevrilməsinə səbəb olur. Ona görə də makroiqtisadi baxımdan bankların investisiya rolu deyərkən investisiya tələbatının ödənilməsinə yönəlmiş fəaliyyət başa düşülür.

Bank sferasında investisiya fəaliyyətinə iki aspektdən yanaşmaq olar. Təsərrüfat subyekti (bank) baxımından investisiya fəaliyyəti bankın gəlirlərini artırmaq məqsədi daşıyır. Makroiqtisadi baxımdan investisiya fəaliyyətinin təsiri dövlət kapitalının artmasına nail olmaqdır.

İqtisadi inkişaf nöqteyi-nəzərindən bankların investisiya fəaliyyətinə təkcə bank səviyyəsində deyil, həm də bütövlükdə cəmiyyət səviyyəsində gəlir gətirən investisiyalar daxildir. Beləliklə, makroiqtisadi baxımdan investisiya fəaliyyətinə aid edilmə meyarı bank investisiyalarının məhsuldar tərəfidir.

Bankların istehsal investisiyaları təsərrüfat subyektlərinin səhm, istiqraz şəklində kapital məsrəflərində iştirak etməklə, ilkin bazara çıxarılan müəssisələrin digər qiymətli kağızlarını almaqla, investisiya krediti verməklə, onların maliyyələşdirilməsində iştirak etməklə bəzi təşkilatların təşkilində özünü investisiya şəklində büruzə verir.

Kommersiya banklarının investisiya fəaliyyətinin hər iki tərəfi bir-birləri ilə sıx bağlıdır. Bu qarşılıqlı əlaqənin əsasını qiymətli kağızlar bazarının inkişafı təşkil edir, burada özəlləşdirmə obyektləri və alətləri birbaşa və ya dolayı formada investisiya prosesinin reallaşdırılması məqsədi ilə ilkin şərtlərdir.

İnvestisiya fəaliyyətinin mikroiqtisadi aspektində kommersiya bankları nizamnamə kapitalına özəlləşdirilmiş müəssisələrin səhmlərinin, qiymətli kağızlarının, müəssisələrin ilkin bazara çıxarılan digər qiymətli kağızlarının alınması şəklində investisiya qoyur, təsisçilik fəaliyyətini həyata keçirir. Beləliklə, investisiya fəaliyyəti iqtisadi sistemdə investisiya proseslərinin önəmli elementidir.

Qiymətli səhimlər bazarında spekulyativ investisiyaların müsbət cəhəti ondan ibarətdir ki, qeyri-sabitliklə səciyyələnən və əhəmiyyətli rola malik olmayan iqtisadiyyatın investisiya tələbatını ödəmək üçün kredit formaları yenə də prioritet olaraq qalacaq. Belə qənaətə gəlinir ki, bankların investisiya prosesində iştirakını nəzərdən keçirərkən bankların investisiya fəaliyyətinin ikili tərəfini göz önündə tutmaq lazımdır.

İnvestisiyaların həyata keçirilməsində bank sektorunun rolu böyükdür. Yaranmış təcrübədə banklar maliyyə və real kapital qoyuluşu ilə məşğul olurlar. Bu

baxımdan onlar mahiyyətcə başqa vasitələr hesabına fəaliyyət göstərən kommersiya təşkilatlarıdır. Bank əməliyyatları iki istiqamətdə fərqlənir: passiv (ehtiyatların cəlb edilməsi) və aktiv (ehtiyatların oturdulması). Gələcək investisiyalar vasitəsilə öhdəliklərin yaradılmasının əsas xüsusiyyətləri bunlardır:

- uzunmüddətli öhdəliklər formalaşmalıdır (bir qayda olaraq, 2 ildən 10 ilədək və ya daha çox müddətə);
- ucuz və sərfəli şərtlərlə sərbəst vəsaitlərin cəlb edilməsi.

Eyni zamanda, bankların öhdəliklərinin əsas mənbələri aşağıdakılardır:

- investorlar tərəfindən cəlb olunmuş vəsaitlər;
- bankların öz vəsaiti;
- müştərilərin depozit hesablarında olan vəsaitlər;
- uzunmüddətli öhdəliklər;
- müştərilərin cari ipoteka öhdəlikləri;
- mövcud investisiya proqramlarının icrası ilə əlaqədar dövlət tərəfindən ayrılan xüsusi büdcə vəsaitləri.

Dövlət siyasəti və bank sektorunun fəaliyyətinin tənzimlənməsində istifadə olunan mexanizmlər investisiya fəallığının artmasına mühüm təkan verə bilər. Bu məqsədlə kommersiya banklarının fəaliyyətini tənzimləmək üçün mərkəzi banklar tərəfindən müəyyən edilmiş standartlar investisiya prosesinin tənzimlənməsi metodu kimi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, müəyyən likvidlik standartlarına riayət edilməsi zərurəti bu və ya digər formada pul kütləsinin həcminə təsir edir ki, bu da kreditləşmə prosesini bu və ya digər dərəcədə tənzimləyir, məcbur edi ki, bankları öz aktivlərinin bir hissəsini daha yüksək likvidlik səviyyəsində saxlasınlar.

# II FƏSİL. AZƏRBAYCANDA BANKLARIN İNVESTİSİYA FƏALİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Bankların investisiya siyasətinin hüquqi-normativ bazası

Ölkəmizdə münasib investisiya şəraitinin yaradılmasında izlənilən hüquqi sistemin ümumi səviyyəsi mühüm rola malikdir. Bazar iqtisadiyyatının mövcud tələbatına müvafiq qanunvericiliyin formalaşması mühüm bir prosesi olaraq hal hazırda davam edir. Ölkədə bütün investorların hüquq və mənafelərinin müdafiəsi, mülkiyyət toxunulmazlığı, habelə yerli və xarici sahibkarlar üçün bərabər iş şəraitinin yaradılması, mənfəətdən maneəsiz istifadə edilməsi haqqında qanunlar qəbul olunmuşdur. Hal-hazırda ölkənin investisiya fəaliyyətini tənzimləyəcək İnvestisiya fəaliyyəti haqqında, Xarici investisiyanın qorunması haqqında qanuni sənədlər tətbiq olunmaqdadır. Amma bəzən qanunlarda belə boşluqlar olmamış deyil. Keçid dövründə müəyyən islahatlar həyata keçirilir ki, bu da qanunların qəbulunda vaxtaşırı dəyişikliklərə səbəb olur. XX əsrin sonlarından, daha dəqiq desək 2001-ci ildən indiyə qədər ölkənin vergi qanunvericiliyində 30-dan çox dəyişikliklər olunmuşdur. Qanunların dövrün tələbinə uyğunluğu posesi uzunmüddətli bir prossedur olmasına baxmayaraq dəyişikliklərin vaxtaşırı olaraq həyata keçirilməsi qeyri-müəyyənliyə səbəb olur. Nəticə etibarı ilə, bu sahədəki layihələrində proseslərin tənzimlənməsi prosesi müəyyən çətinlik yaradır ki, bu zaman investisiya riskləri çoxalır. Məhz elə buna görə qanunvericilik bazasının, xüsusi ilə də vergi ilə bağlı qanunvericiliklə bağlı sənədlərdə edilən yeniliklər ciddi olaraq əsaslandırılarsa, tez-tez dəyişikliklərin edilməsinə ehtiyac yaranmasın. Son zamanlarda bu istiqamətdə müəyyən addımlar atılmışdır. Belə ki, əvvəlki illərdə vergi qanunvericiliyində dəyişikliklər olunduqdan sonra, bu dəyişikliklər həmin andan qüvvəyə minirdi. İndi isə vergi qanunvericiliyində dəyişikliklər edilməsindən onun qüvvəyə minməsinədək ən azı 6 ay müddət keçməlidir. Bununla yanaşı, qanunların reallaşdırılması mexanizmlərinin yaradılması da şərtdir.

Son bir ildə Azərbaycanın Respublikasının beynəlxalq iqtisadi əlaqələrinin

sürətli inkişafı maliyyə-kredit sektorunun müasir tələblər baxımından tənzimlənməsini zəruri edir. Elə bu sahədə mühüm tədbirlərdən biri də bankların və maliyyə institutlarının hüquqi-metodoloji bazası ilə yanaşı daxili nəzarət sisteminin beynəlxalq prinsiplərə uyğun tənzimlənməsidir.

Azərbaycanın davamlı inkişafı, müasir iqtisadi sistemin təşəkkül tapması bilavasitə ölkədaxili bank sektorunun iş prinsipi ilə bağlıdır və sektorun səmərəliliyinin yüksəldilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və müasir idarəetmə mexanizminin səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, son on ildə bütün dünyada çirkli pulların yuyulmasına və terrorçu qrupların maliyyələşdirilməsinə qarşı mübarizə daha geniş vüsət alıb ki, Azərbaycan da iqtisadi ölkə olaraq bu proseslərin mərkəzindədir.

Korrupsiya ilə Mübarizə strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı da ölkədə qanunvericilik bazasının təkmilləşdirilməsi prizmasından müsbət qarşılanmışdır. Prezidentin daha bir Fərmanında öz təsdiqini tapmış və müvafiq sahədə dövlət siyasətinin həyata keçirilməsi, habelə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi kimi yeni yaradılmış qurum - FATF ilə tərəfdaşlıq və onun tövsiyələri üzrə qanunvericiliyin beynəlxalq standartlala uyğunluğunu müəyyən etmək üçün növbəti qanunvericilik aktlarının hazırlanması və qəbul edilməsinə, ölkədə bank və maliyyə bazarının səmərəliliyinin artırılmasına dəstək göstərir. Maliyyə Monitorinqi Xidməti ölkədə maliyyə şəffaflığının yaxşılaşdırılması üçün bir sıra normativ aktlar da qəbul edib. Belə ki, minimal proqram elementlərini özündə əks etdirən cinayət vasitəsiylə əldə olunmuş pulun və terror fəaliyyətinin iştirakçılarının monitorinqində və maliyyələşdirilməsində iştirak edən digər şəxslərin leqallaşdırılmasına daxili nəzarət sisteminin hazırlanmasına dair tələblər" hazırlanmışdır: Daxili qayda və prosedurların işlənib hazırlanması; Daxili nəzarət sisteminin təşkilinə cavabdeh olan şəxslər Maliyyə Monitorinqi Xidməti tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq peşəkar ixtisaslara və iş təcrübəsinə malik olmalıdırlar. Bankların nəzarət sisteminin əsas iş prinsipi effektiv idarəetmə tədbirləri və prosedurlarını həyata keçirməklə terrorçuluğun leqallaşdırılması və maliyyələşdirilməsinin monitorinqində iştirak edən hüquqi şəxslər tərəfindən çirkli

pulların yuyulması və digər əmlakdan istifadə riskini azaltmaqdan ibarətdir. Bütün bunlara müştərilərin identifikasiyası, monitorinq subyektləri tərəfindən şübhəli əməliyyatların müəyyən edilməsi, qarşısının alınması, cəlb edilməsi və yoxlanılmasına aid daxili prosedurların işlənib hazırlanması, habelə məsul şəxslər tərəfindən qəbul edilmiş qayda və prosedurlara riayət edilməsinə nəzarət edilməsi daxildir. Reqlamentlərlə yanaşı, bir çox tələblərin effektivliyinin yoxlanılması məqsədilə daxili audit mexanizminin yaradılması maliyyə sisteminin şəffaflığının artırılması istiqamətində yeni islahatların aparılmasına təkan olmuşdur.

Banklar, lombardlar, kredit təşkilatları, investisiya fondları, lotereya təşkilatçıları, sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri, habelə daşınmaz əmlakın alqı-satqısı ilə bağlı vasitəçilik xidmətləri göstərən hüquqi və ya fiziki şəxslər fəaliyyətini mövcud qanunvericilik tələblərinə uyğun tənzimləməlidir. Həmçinin, maliyyə şəffaflığına nail olmaq üçün mövcud sahələrdə beynəlxalq standartların tətbiqi və digər qurumların fəaliyyəti ilə əlaqələndirilməsi məqsədə daha səmərəli nail olmaq üçün yeni imkanlar yaradır. Maliyyə Monitorinqi Xidmətinin strateji prioritetlərindən biri ölkədə maliyyə şəffaflığının artırılması, qeyri-qanuni pul vəsaitləri ilə yanaşı, əmlakın leqallaşdırılması, terrorçuluğun dəstəklənməsi və maliyyələşdirilməsinə qarşı mübarizədə aidiyyəti qurumlarla əməkdaşlığın gücləndirilməsidir.

“Banklar haqqında” Qanun və Mərkəzi Bankın “Banklarda daxili audit və daxili auditin təşkili haqqında” Qaydaları bankların nəzdində daxili audit xidmətinin olmasını, eləcə də bank aktivlərinin təhlükəsizliyini təmin olunması üçün müvafiq nəzarət mexanizmlərinin adekvatlığını və ya mövcudluğunu təsdiq edir. Bankların fəaliyyətinin şəffaflığının təminatında daxili nəzarətin tətbiq edilməsi və daxili auditin təşkil olunması ən mühüm məsələlərdən hesab edilir.

Ölkənin iqtisadi inkişafın təmin olunması və investisiya mühitinin yaxşılaşdırmaq məqsədi üçün əsas göstəricilərdən biri mülkiyyət hüquqlarının müdafiəsi şərti ilə iqtisadi cəhətdən müstəqilliyi təmin edəcək iş prinsipinin yaradılmasıdı. Məlum olduğu kimi, azad bazar şəraitində mülkiyyət məsələlərinin tətbiqi mexanizmi sərtləşir. Ölkəmizdə mülkiyyətlə bağlı hüququnun başqa bir şəxsə

ötürülməsinin, qiymətli kağızların, daşınmaz əmlakın rəsmiləşməsi zamanı səmərəli mexanizm razılaşm vəsaitlərinin azaldılmasına gətirib çıxarır. Bütövlükdə götürdükdə isə mülkiyyətin qorunması ilə bağlı problem varsa bu zaman investisiya üçün təhlükənin əsas göstəricisidir. Hal-hazırda səhmdarların bütün hüquqlarının qorunması gündəmdə olan məsələdir ki, bu da bilavasitə ölkədəki korporativ təşkilatlanmanın inkişafından daha çox asılıdır və mövcud olan inkişaf səviyyəsi ölkə daxilində investisiya mühitinin mühüm amillərindən biri olmaqla yanaşı, investisiya fəallığına da bir başa təsir göstərir. Bu da öz növbəsində investorların bir başa şirkətə bəslədiyi etibarını nəticəsi olaraq uzunmüddətli investisiyanın cəlb olunmasına yaradır. Əgər ölkəmizdə korporativ idarəetmə səviyyəcə aşağıdırsa, deməli onun daözünəməxsus səbəbləri vardır. Nəzərə almaq lazımdır ki, biznesin investisiya cəlbediciliyinin ən zəruri şərti məhz onun səmərəli olmasıdır. İnvestorların bütün hüquqlarının qorunması məqsədi ilə korporativ məsələləri tənzimləyəcək idarəetmə məcəlləsinin yeni formasının hazırlayaraq bəzi səhmdar cəmiyyətlərin qəbul etməsi vacibdir.

İnvestor hüquqlarının qorunması məqsədi ilə onların müəssisə üzərində nəzarətlərinin gücləndirilməsi məqsədi ilə informasiya təchizatının daha da təkmilləşdirilməsinin əhəmiyyəti böyükdür. Bu sahədə atılan addımlar bütün kreditorların qanuni mövqelərinin reallaşmasına şərait yaratdığı kimi, digər tərəfdən də iflas proseslərinin tətbiq olunması mülkiyyətçilərin bir başa hüquqlarının müdafiəsinə çıxarar. Qeyd edək ki, iflas prosedurası biznes subyektinin ləğv olunması ilə nəticələnməyə də bilər. Bir sıra hallarda iflas prosedurasından biznes subyektinin maliyyə cəhətdən yaxşılaşdırılması məqsədilə də istifadə olunur. Misal olaraq desək, səhmdar cəmiyyətlərinin səhmdarları mövcud müəssisənin öhdəlikləri üçün cavabdehlik daşımır. Belə olduğu halda, onların səhmdar cəmiyyətindəki payı müəssisənin borclarının ödənilməsinə birbaşa olaraq yönəldilə bilməz. Əgər müəssisə iflas edərsə, onun əmlakı bir başa borcların ödənilməsi üçün yenidən bölüşdürülür. Nəticədə isə şirkətin maliyyə vəziyyəti yaxşılaşır. Bu da öz növbəsində onu göstərir ki, iflas vəziyyətində olan mövcud sahibkarlıq subyektlərinin inkişaf gözləntilərinin aydınlaşdırılması ölkədə investisiya mühitinin

gücləndirilməsində böyük əhəmiyyət kəsb edir. Elə bu səbəbdən, ölkədə vergi sahəsində intizamının artırılması bu kimi müəssisələrin səmərəli sahibkarın mülkiyyətinə keçməsinə və hətta ləğv edilməsinə səbəb olur.

## 2.2. Bankların investisiya fəaliyyətinin müasir vəziyyətinin təhlili

Müstəqilliyə nail olmuş Azərbaycan üçün prioritet məsələ bazar münasibətləri mexanizmin yaradılması ilə iqtisadi inkişafa nail olmaqdır. Məlum olduğu kimi, belə prosesləri qısa vaxt ərzində reallaşdırmaq mümkün deyil. Hələ müstəqilliyinin ilk illərindən yaşanan gərgin sosial-iqtisadi vəziyyət, daxili və beynəlxalq durum qarşıya qoyulmuş iqtisadi dirşəliş üçün başlıca maneələr idi.

Azərbaycanın iqtisadi inkişaf tempi və bütün sferalara qoyulacaq investisiyalar özünə məxsus spesifikliyi ilə seçilird. Reallaşdırılmış iqtisadi islahatların mühüm gözləntilərindən biri də ölkə gəlirinə xidmət edəcək maliyyə-kredit siyasəti yürütməsi ilə yanaşı, həm də investisiya qoyuluşunun artırılmasına müsbət təsirini göstərməsi olmuşdur. Aparılmış siyasətin nəticəsi olaraq investisiya siyasəti konkret layihələrlə və onların reallaşma prosesilə müşahidə edilirdi ki, burada da ilk olaraq üstünlük həmişəki kimi energetika sektoruna verilirdi.

**Şəkil 1: Əsas kapitala investisiyaların real artım tempi, %-ilə**




**Mənbə:** İqtisadiyyat Nazirliyinin rəsmi saytı-
https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/Makro%20yanvar-sentyabr%202021.pdf

Azərbaycan Respublikası DSK-nın verdiyi məlumata görə, 2020-ci ildə bir çox sahələrdə investisiya qoyulması artaraq 22,4 mlrd. manatı keçmişdi. Həmçinin,

daxili investisiyalar ötən 10 ildə 48%-ə qədər, xarici investisiyalar isə 63% -ə qədər artmışdır. Hazırda isə əsas kapitala yönəldilmiş investisiyaların artım tempi 91,8% təşkil edir.

Şəkil 1-dən göründüyü kimi 2021-ci ildə əsas kapitala yönəldilmiş bütün investisiyaların əhəmiyyətli hissəsi neft sektoruna deyil, digər istehsal sahələrinin xidmətinə aid edilir. Neft sektoruna qoyulan investisiyaların həcmi isə azalmışdır. Ümumi olaraq nəzər salsaq, digər istehsal sahələrinə investisiya qoyulması 2021-ci ildə 2015-cü ilin göstəricilərindən 34% artıq olduğunu görərik. Xüsusilə də, texnika və avadanlıqların istehsalı, tikinti-abadlıq işləri, habelə kimya sahəsi və kənd təsərrüfatı sahələri kimi sahələrinə investisiya qoyuluşu daha çox artmışdır. İnvestisiya məqsədləri üçün yönəldilən bank kreditləri, son 5 il üçün 35% - dən artıq olmuşdur. İnvestisiya mənbələri kimi 45% bank kreditlərini, 28% mənfəət və 17% amortizasiyanı qeyd etmişlər. Cədvəl 1-də iqtisadiyyata investisiya qoyuluşlarının təhlili göstərir ki, 2020-ci ildə daxili investisiyalar son 10 ildə xarici investisiyaları qismən üstələmişdir. Bununla belə 2015-ci, 2016-cı, 2017-ci, 2018-ci illərdə üstünlük xarici investisiyalarda olmuşdur.

**Cədvəl 1: İqtisadiyyata investisiya qoyuluşları**

| **Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla):** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|
| mlyn.manat | 14118,9 | 20057,4 | 22706,4 | 24462,5 | 25877,0 | 24986,6 | 22484,0 |
| mlyn.dollar | 17591,4 | 19547,2 | 14228,0 | 14213,3 | 15221,7 | 14698,0 | 13225,9 |
| **Xarici investisiyalar:** | | | | | | | |
| mlyn.manat | 6619,7 | 10998,9 | 16216,1 | 15697,3 | 14002,1 | 12119,5 | 10413,2 |
| mlyn.dollar | 8247,8 | 10719,1 | 10161,1 | 9120,5 | 8236,5 | 7129,1 | 6125,4 |
| **Daxili investisiyalar:** | | | | | | | |
| mlyn.manat | 7499,2 | 9058,5 | 6490,3 | 8765,2 | 11874,9 | 12867,1 | 12070,8 |
| mlyn.dollar | 9343,6 | 8828,1 | 4066,9 | 5092,8 | 6985,2 | 7568,9 | 7100,5 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanın bank sektorunun inkişafında nəzərə çarpacaq dəyişikliklər müşahidə edilsə də, bu sahənin bəzi inkişaf xüsusiyyətləri dünyanın qabaqcıl ölkələri ilə müqayisədə xeyli dərəcədə aşağı səviyyədədir. Müvafiq göstəricilər

sırasında iqtisadiyyatın kreditləşdirilməsi dərəcəsi - real kredit vəsaitlərinin ÜDM-ə nisbət göstəricisi olaraq, iqtisadiyyatın monetizasiyanı göstərmək mümkündür.

Cədvəl 2-də iqtisadiyyata investisiyaların kredit təşkilatları üzrə strukturu göstərilmişdir.

**Cədvəl 2: İqtisadiyyata investisiyaların kredit təşkilatları üzrə strukturu**

| Tarix | Cəmi kredit qoyuluşları | Dövlət bankları | | Özəl banklar | | | | | | Qeyri-bank kredit təşkilatları | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Cəmi | | o cümlədən, xarici kapitallı banklar | | bundan 100%-li xarici kapitallı banklar | | | |
| | | mln. manat | xüsusi çəkisi, % | mln. manat | xüsusi çəkisi, % | mln. manat | xüsusi çəkisi, % | mln. manat | xüsusi çəkisi, % | mln. manat | çəkisi, % |
| 2015 | 21730,4 | 7289,3 | 33,6 | 13875,2 | 63,8 | 6394,1 | 29,4 | 1564,5 | 7,2 | 566,0 | 2,6 |
| 2016 | 16444,6 | 5749,2 | 35,0 | 10222,0 | 62,2 | 4328,8 | 26,3 | 1248,8 | 7,6 | 473,4 | 2,9 |
| 2017 | 11757,8 | 1916,2 | 16,3 | 9421,4 | 80,1 | 3456,3 | 29,4 | 1063,6 | 9,0 | 420,2 | 3,6 |
| 2018 | 13020,3 | 2098,4 | 16,1 | 10529,8 | 80,9 | 3349,5 | 25,7 | 1071,3 | 8,2 | 392,0 | 3,0 |
| 2019 | 15298,2 | 2561,5 | 16,7 | 12339,4 | 80,7 | 3655,8 | 23,9 | 1107,4 | 7,2 | 397,2 | 2,6 |
| 2020 | 14530,4 | 2776,5 | 19,1 | 11380,5 | 78,3 | 3112,3 | 21,4 | 968,2 | 6,7 | 373,4 | 2,6 |
| 2021 | 17119,8 | 3333,0 | 19,5 | 13326,1 | 77,8 | 3980,0 | 23,2 | 1267,3 | 7,4 | 460,7 | 2,7 |
| 2022 | 17587,2 | 3464,3 | 19,7 | 13662,2 | 77,7 | 4098,1 | 23,3 | 1312,4 | 7,5 | 460,7 | 2,6 |

**Mənbə:** https://www.cbar.az/page-42/monetary-indicators

Cədvəl 2-nin məlumatları göstərir ki, 2021-ci ildə iqtisadiyyata kredit qoyuluşları 2015-ci illə müqayisədə 21% azalmışdır. Buna baxmayaraq 2020-ci illə müqayisədə bu göstərici 17% artmışdır. Ümumilikdə, iqtisadiyyata kredit qoyuluşları 2016-cı, 2017-ci, 2020-ci illərdə azalma ilə müşahidə edilmiş, 2018-ci, 2019-cu, 2021 və 2022-ci illərdə artım olmuşdur. 2021-ci ildə iqtisadiyyata kredit qoyuluşlarının 19,5%-i dövlət banklarının, 77,8%-i özəl bankların, 2,7%-i bank olmayan kredit təşkilatlarının payına düşmüşdür. Bu göstərici 5 il öncə müvafiq olaraq 35%, 62,2% və 2,9 % olmuşdur. Göründüyü kimi, son 5 ildə iqtisadiyyata kredit qoyuluşu üzrə özəl bankların payı azalmışdır. Bununla belə dövlət banklarının sayına nisbətdə bu göstərici elə də yüksək deyil (Cədvəl 3). 2021-ci ildə iqtisadiyyata kredit qoyuluşları üzrə özəl bankların 7,4%-i 100%-li xarici kapitallı banklar olmuşdur. Bu göstərici üzrə ən yuxarı göstərici 2017-ci ildə 9% olmuşdur.

**Cədvəl 3: Maliyyə bazarlarının iştirakçıları haqqında ümumi məlumat**

| | 31.12.2019 | 31.12.2020 | 31.12.2021 |
|---|---|---|---|
| **Bankların sayı** | **30** | **26** | **26** |
| Dövlət bankları | 2 | 2 | 2 |
| Özəl banklar | 28 | 24 | 24 |
| Xarici kapitallı banklar | 14 | 12 | 12 |
| nizamnamə kapitalının 50%-dən 100%-ə qədərini təşkil edən | 7 | 7 | 7 |
| - xarici bankların yerli filialları | 2 | 2 | 2 |
| nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil edən | 7 | 5 | 5 |
| Bankların filiallarının sayı | 509 | 455 | 479 |
| Bankların şöbələrinin sayı | 133 | 109 | 97 |
| Bank işçilərinin sayı | 19460 | 18708 | 20329 |

**Mənbə:** https://uploads.cbar.az/assets/d701bfa769e508299fbf2354c.pdf

Cədvəl 3-ün məlumatlarının təhlili göstərir ki, Azərbaycanda bankların sayı

son 3 ildə 30-dan 26-ya enmişdir. Hazırda 2 dövlət bankı 24 özəl bank vardır. Ölkəmizdə bank filiallarının sayı 479, bank şöbələrinin sayı 97-dir. Bank filiallarının və şöbələrinin sayı son 3 ildə azalmasına baxmayaraq, banklarda çalışan işçilərin sayı son 3 ildə artmışdır.

**Cədvəl 4: Bankların kredit portfelinin strukturu barədə məlumat (mln.manat)**

| Portfelin bölgüsü | 31.12.2019 | 31.12.2020 | 31.12.2021 |
|---|---|---|---|
| **Kredit portfeli,** | **14,900.9** | **14,157.0** | **16,659.1** |
| *o cümlədən* | | | |
| - biznes kreditləri | 9,031.6 | 8,478.3 | 9,740.0 |
| - istehlak kreditləri | 4,075.3 | 3,661.2 | 4,518.4 |
| - ipoteka kreditləri | 1,794.0 | 2,017.5 | 2,400.7 |

**Mənbə:** https://uploads.cbar.az/assets/d701bfa769e508299fbf2354c.pdf

Cədvəl 4-də Bankların kredit portfelinin strukturunu təhlil etdikdə görürük ki, son 3- ildə bankların kredit portfeli 11% artaraq 16,659 mln manata çatmışdır. Kredit portfelinin strukturuna əsasən kreditlərin 9,740 mln manatı başqa sözlə 58%-i biznes kreditlərinə verilmişdir. İstehlak kreditləri 2-ci, ipoteka kreditləri isə 3-cü sırada gəlir. Biznes kreditlərinin ümumi kreditlərin həcmində payının yüksək olması iqtisadiyyatın davamlı inkişafında mühüm göstəricidir.

**Şəkil 2: 2020-ci il ərzində kredit və depozitlərin artım tempi, %**




**Mənbə:** 2020-ci ildə Dövlət büdcəsinin icrası ilə bağlı Hesabalama Palatasının rəyi, səh. 23

Şəkil 2-də 2020-ci il ərzində kredit və depozitlərin artım tempinə nəzər yetirdikdə görürük ki, kreditlər və depozitlər üzrə artım trayektoriyası aşağıya doğru

istiqamət almışdır. Depozitlərin azalması il ərzində kreditlərin də həcminin azalmasını şərtləndirən amil kimi çıxış etmişdir.

Ölkənin bank sektorunun ən böyük çatışmazlıqlarından başlıcası sektorunda kapitalın ilə bank aktivləri sayının aşağı olmasıdır. Belə ki, 2020-ci ilin göstəricilərinə görə Azərbaycanın bank sektorunda məcmu aktivlərin həcmi 29 milyard, məcmu kapital göstəricisi isə 4,1 milyalrd manat təşkil etmişdir (Azərbaycanda makroiqtisadi vəziyyət, 2020, səh.4). Müqayisə üçün desək, bu rəqəm Rusiyada 1758,3 milyard, Qazaxıstanda 154, Ukraynada 159,8 milyard, Belarusda 41,24 milyard dollar göstərici ilə fərqlənir. Ölkə üzrə bu göstəricinin səviyyəsi son 5 ildə 40-50% arasında olsa da, MDB məkanında Ukraynada 63,5%, Qazaxıstanda 102%, Moldovada 52%, Rusiyada 75%; Şərqi Avropa ölkələrində isə 60%-100% arasındadır. Üstəlik, müvafiq göstəricinin səviyyəsi inkişaf etmiş ölkələrdə daha da yüksəkdir: Məsələn, Böyük Britaniyadakı faiz göstəricisi ABŞ-dan 5 dəfə artıq olması ilə diqqət çəkir. Bank sektorlarının bu qədər böyük aktivlərinin iqtisadiyyata mənfi və ya müsbət təsir göstərməsi müəyyən fikir ayrılıqları yaradır.

Son dövrlərdə ökənin bank sektorunda çox ciddi problemlər yaşanmaqdadır. Bu vəziyyətin əsas səbəblərindən biri bank sektorunda ümumi aktivlərin strukturunda mövcud çatışmazlıqlardır. Belə demək olar ki, aktivlərinin 26 faizini likvid aktivlər və başqa aktivlərdir, əsas hissəsi isə bank sektorunun özünün verdiyi kreditlərdir. Onu da qeyd edək ki, ölkəmizin bank sistemində bank aktivlərinin strukturu kəskin şəkildə fərqlənir və bəzi kommersiya banklarının aktiv strukturunda kreditlərin payı 90%-dən yuxarıdır. Ümumiyyətlə, bank sektoruna verilən kreditlərin daha da genişlənməsinin sayəsində aktivlərin çoxalması iqtisadiyyat üçün arzuolunan vəziyyətdir. Bununla belə, bank sektorunda kreditlərin strukturunda vaxtı keçmiş mövcud kreditlərin xüsusi çəkisinin də yüksək olması kredit portfelinin keyfiyyət problemi bank aktivlərinin artımına mənfi təsir göstərməsinə səbəb olur. Bu sektorunun inkişafına müəyən qədər təsir edən digər amil aktivlərin strukturunda investisiyaların çəkisinin, cəmi 6-8% olmasıyla əlaqəlidir. Belə ki, ümumi aktivlər ÜDM-ə nisbətinə görə MDB ölkələrində bu göstəricinin yüksək payına malik Qazaxıstan və Rusiyada bankların investisiyaların, yəni qiymətli kağızlarla

əməliyyatları Azərbaycan bank sistemindəkindən xeyli yuxarıdır. Ötən il ərzində Qazaxıstanda və Rusiyada milyon dollarlarla dəyərində olan qiymətli kağızların alqı-satqısı prosesi həyata keçirilib. Məhz elə bunun nəticəsidir ki, bu ölkələrin bank sektorlarında investisiya hesabına aktivlərin formalaşması prosesi müvafiq olaraq 15 və 30 faiz olmuşdur.

Son zamanlar ölkənin bank sistemində kapitalın səviyyəsi bankların iqtisadiyyatda daha geniş fəaliyyət göstərməsinə imkan vermir. Belə amillərin nəticəsi olaraq "Mərkəzi Bank bir sıra banklardan mövcud vəziyyətdə yarana biləcək risklərlə yanaşı, gözlənilməz itkiləri kompensasiya etməyə imkan verəcək məcmu kapital səviyyəsinə malik olmasını tələb edib". Ümumiyyətlə, böyük kapitala malik banklar böhran illərində daha dözümlü olur və öz fəaliyyətlərini daha yaxşı davam etdirə bilirlər.

Pandemiya ilə əlaqədar karantin rejiminin iqtisadiyyata mənfi təsiri, beynəlxalq ticarət və investisiya fəaliyyətinin yavaşlaması Azərbaycan banklarının gəlirlərinə təsir göstərib. Bu gün ölkəmizdə kommersiya banklarının investisiya fəaliyyətinə həm daxili, həm də xarici maneələr mövcuddur. "Daxili zəif idarəetmə sistemi, zəif biznes planlaması və zəif biznes təcrübələri daxildir. Xarici risklərə yüksək kredit riskləri, girov qanunvericiliyinin ciddi həll olunmamış problemləri, bankların resurs imkanlarının məhdudluğu, əsasən orta və uzunmüddətli öhdəliklərin olmaması, habelə əhalinin banklara inamının aşağı olması daxildir".

"Bununla belə, Azərbaycan Respublikasının iqtisadiyyatı və bank sektoru investisiya dinamikasına görə nisbətən aşağı investisiya cəlbediciliyinə malikdir". Resursların atipik funksiyaları yerinə yetirmək üçün yönləndirilməsi səbəbindən banklara inzibati təzyiqlər əhəmiyyətli olaraq qalır. Kapitalın konsolidasiyası proseduru (kredit təşkilatlarının birləşməsi və alınması) lazımsız dərəcədə mürəkkəbdir. Banklar tərəfindən hesabatların yalnız elektron formada təqdim edilməsi məsələsi həllini tapmayıb. Yenidən maliyyələşdirmə sisteminin daha da inkişaf etdirilməsi zərurəti kimi metodoloji məsələlər də var.

"Kommersiya bankları tərəfindən investisiya fəaliyyətinin həyata keçirilməsində əsas problemlər bunlardır":

**Sxem 2: Kommersiya banklarının investisiya fəaliyyətinin həyata keçirilməsində yaranan əsas problemləri**




**Mənbə:** https://aih.gov.az/media/xeberler

"Banklar müştəri mərkəzli fəaliyyət göstərir: kredit tətilləri elan edir, xəstəlikdən əziyyət çəkən müştərilər üçün gecikmə komissiyalarını ləğv edir və s." Məhz bu investisiyalar əlavə investisiyalar tələb edir. Ona görə də bu istiqamətin həyata keçirilməsi üçün əsas vəzifələrin müəyyən edilməsi və həlli vacibdir. Bura daxildir:

**Sxem 3: İnvestisiyalara cəlbediciliyin artırılması üzrə başlıca vəzifələr**




**Mənbə:** https://www.cbar.az/page-11/monetary-policy

Bu iki məqam kommersiya banklarına investisiya fəaliyyətlərini yenidən istiqamətləndirməyə imkan verəcək. Qiymətli kağızlara investisiyadan sənayeyə investisiyaya keçid bank əməliyyatlarının səmərəliliyini artıracaq. Beləliklə, Azərbaycanda bank investisiya bazarının inkişafındakı əsas problemlərlə bağlı aşağıdakı nəticələrə gəlmək olar:

**Sxem 4: Azərbaycanda bank investisiya bazarının inkişafındakı əsas problemlər**




**Mənbə:** https://www.cbar.az/page-195/market-actors

Kreditin müddətinin uzadılması müəssisələrə investisiya məqsədi ilə iri həcmli kreditlər almağa imkan verəcək. Bank müştəriləri üçün faiz dərəcələrinin azaldılması və təxirə salınmaların artırılması proqramın cəlbediciliyini artıracaq.

Həmçinin, bu proqram banka pul borc verir və riskləri azaltmaqla müntəzəm olaraq faiz gəliri əldə etməyə imkan verəcək.

Bank işinin səmərəliliyini xarakterizə edən əsas göstərici iqtisadiyyatın kreditləşdirilməsinin səviyyəsi, kreditlərin ÜDM-ə nisbətidir. Hal-hazırda, dünyanı iqtisadi inkişaf yolunu tutmuş dövlətlərlə müqayisədə bəzi göstəricinin səviyyəsi xeyli aşağıdır. Təbidir ki, inkişaf etmiş ölkələr məxsus olan göstərici Azərbaycanın iqtisadiyyatı üçün optimal səviyyə sayıla bilər.

Araşdırmalar göstərir ki, iqtisadiyyatda borc böhranının səviyyəsi ÜDM-in 90 və bəzən də100%-ni təşkil edir. Ölkə daxilində 2013-2015-cü illərdə kredit həcminin sürətli yüksəlməsi, Mərkəzi Bankın mövcud sahədə göstərdiyi fəaliyyəti, iqtisadi sahədə yaranmış real göstərici üçün adekvat addım kimi qəbul olunsa da, mövcud göstəricinin səviyyəsi bir qədər fərqlidir. Ölkə əhalisininəksər hissəsinin banklara

borclu olması artıq ciddi hal almışdır. Avtomobillər, zinət əşyaları, evlər və digər daşınmaz əmlaklar insanlar özlərini banklara borclu hiss etdikcə yox olur. Mərkəzi Bank bank faizlərinin aşağı salınmasını tələb etsə də, qeyri-real statistika ilə vəziyyət tamam fərqlidir və faiz dərəcələri yüksək olaraq qalır. Bu sektorun gücləndirilməsi üçün əlavə tədbirlər görülməli, lazımi fondlar yaratmaqla kreditlər üzrə faiz dərəcələrinin endirilməsi istiqamətində mühüm addımlar atılmalıdır.

Kredit təşkilatlarına borcu olan vətəndaşların sayı 3 milyona yaxındır ki, onların da 95%-i fiziki şəxsdir. Bununla yanaşı təxminən 1 milyon yarım şəxs zamin olan şəxslərdir. Aktivlərin keyfiyyətinin pisləşməsi ilə əlaqədar ölkə banklarının kapitalına təzyiqlər var. Azərbaycanda bank sisteminin təkmilləşdirilməsinə ehtiyac getdikcə artır, mövcud sistem müasir dövr üçün dünya standartlarına cavab vermir, həmçinin bir çox banklar qeyri-sağlamdır, bu səbəbdən də onların sağlamlaşdırılmasına və yenidən qurulmasına ehtiyac yaranmışdır. İlk olaraq qeyri-sağlam bankları bağlamaq lazımdır və belə bankların sistemdə saxlanması sağlam banklara mənfi təsirlə nəticələnir. Bu səbəbdən də qeyri-sağlam banklar iflas ərəfəsindədir və öhdəlikləri aktivlərini üstələyən banklardır. Banklar problemli kredit götürməsələr, əmanətçilər və kreditorlar qarşısında öhdəliklərini yerinə yetirməkdə çətinliklərlə qarşılaşacaqlar. Bankların bağlanması düşünüldüyü qədər asan proses deyil və iş prosesini dayandırmış bankda insanların vəsaitlərini əgər “Əmanətlərin Sığortalanması Fondu” öncədən sığortalamış olarsa, bu vəsaitlər geri qaytarılır.

Qanunvericiliyə əsasən 30.000 manata kimi olan və illik faiz dərəcəsi 12 faizədək olan əmanətlər qaytarılır. Amma, bankın ləğvi prosesində isə bankın bütün əmlakı tamamilə satılır, sonra da ilk növbədə, ləğvetmə komissiyasının çəkmiş olduğu xərclər ödənilir və bu prosesisə bir ildən çox vaxt sərf olunur. Azərbaycan banklarında daha çox problem özünü idarəetmədə göstərir. Bəzi iri banklara dövlət dəstəyi sayəsində müəyyən irəliləyişlər əldə olunub. Bu sektora manatın devalvasiyası, inflyasiyaya ilə yanaşı əhalinin gəlirləri sahəsində baş vermiş dəyişikliklər də öz növbəsində ciddi təsir göstərməkdədir.

Ölkədə faiz dərəcələrinin belə yüksək olması daxili və xarici amillərlə

biləvasitə bağlıdır. Mərkəzi Bankın banklardan aşağı faiz tələb etməsi üçün ilk olaraq verdiyi mərkəzi kreditlərin həcmini müəyyən qədər artırmalıdır. Ən başlıcası da bu vəsaitdən bankların hamısı yararlanmalıdır. Bu baxımdan xaricdən ucuz maliyyə resurslarının cəlb olunması də vacibdir. Hazırda kreditlər arasında orta hesabla 30%-dən çox istehlak kreditləri üstünlüyü diqqəti cəlb. Milli bankların isə xarici bazara çıxması imkanları zəif olaraq qalmaqdadır.

Bank sektorunun liberallaşdırılması məsələsi də digər xarici bankların bu sektora daxil olmasına şərait yaradılmasına, bu sahədə süni maneələrin aradan qaldırılmasına, bank sektorunun rəqabət qabiliyyətinin təmin edilməsinə və faiz dərəcələrinin aşağı salınmasına xüsusi ehtiyacdan irəli gəlir.

## 2.3. Bankların investisiya əməliyyatlarının dinamik inkişafa təsirinin qiymətləndirilməsi

Mövcud mühitin ən vacib sahələrindən biri olan əhalinin alıcılıq qabiliyyəti bir çox amillərdən - cari gəlir və qiymətlərdən, işsizlik səviyyəsindən, iqtisadi yüksəliş və geriləmə kimi müxtəlif göstəricilərlə əlaqədardır. Müasir təcrübə vurğulayır ki, sahibkarlar öz bizneslərini qurmaqla bağlı son qərarlarını daxili və xarici imkanlara, investisiya resurslarının mövcudluğuna əsaslanaraq verirlər. Onu da qeyd etmək yerinə düşər ki, biznesdə uğur qazanmaq və uğursuzluğa məruz qalmaq xeyli dərəcədə müəssisənin, hətta bəzi şirkətlərin bazarda yerinin düzgün seçib-seçməməsindən, həmçinin maliyyə resurslarının səmərəli şəkildə istifadəsindən birbaşa asılıdır. Kommersiya təşkilatlarının maliyyə resursları da bank və investisiya imkanlarının məqsədyönlü şəkildə cəlb edilməsi ilə bağlıdır. İqtisadi münasibətlərin izlənilən şəkildə dərinləşdiyi dövrdə sahibkarlığın inkişafının qarşısında duran vacib problemlərdən biri də onların lazımi maliyyə resursları ilə təmin edilməsinin təşkilidir. Məlum problemin həlli eyni zamanda dövlətin həyata keçirdiyi siyasətinin miqyasından və onun səmərəsindən bir başa asılıdır. Elə bu baxımdan yalnız yaxın gələcəkdə dövlət tərəfindən səmərəli investisiya siyasətinin həyata keçirilməsi bütövlükdə iqtisadiyyatın bütün sahələrində daha yüksək iqtisadi inkişafı əsaslı şəkildə təmin edə bilər. Bütün bu

proseslərin gedişatında alternativ gəlir məsələlərin təhlili, riskin dəyərləndirilməsi məqsədəuyğun hesab olunmalıdır. Bundan əlavə, bank-maliyyə sektorunun təşkili və tənzimlənməsi dövlətin mövcud maliyyə və büdcə yükünü azaldacaq ki, bu da vəsaitlərin sosial ehtiyaclarını ödəyəcək. Milli iqtisadiyyatın inkişafı üçün daxili və xarici mənbələr hesabına yetərincə investisiyalar yatırılması müşahidə edilməkdədir və bu baxımdan ölkədə çox vacib olan bir sıra layihələr artıq demək olar ki, daxili investisiyalar hesabına reallaşdırılır. Yəni, kənd təsərrüfatı sahəsində orta və kiçik fermaların təşkil olunması, tranzit potensialının artırılması və dəmiryol infrastrukturun bərpası kimi layihələr buna nümunədir. Bununla yanaşı, nəqliyyatda, sənayenin digər sahələrində, kənd təsərrüfatında 2010-cu ildən etibarən çoxsaylı layihələrə başlanılsa da, başa çatdırılması mümkün olmamış, amma son iki ilə bitməsi planlaşdırılır. Bu qənaətə gəlmək olar artıq ki, iqtisadiyyatı maliyyə resursları ilə tam təmin etmək üçün yetərincə hələ də istifadə edilməmiş imkanlar mövcuddur.

Ölkədə uğurlu inkişafa istiqamətlənən güclü ehtiyatların olmsı olduqca çoxsaylı sosial və iqtisadi layihələrin mütəmadi olaraq reallaşması imkanı yaradır. Bunlarla yanaşı, özəl sektorun inkişafı üçün mövcud resurslardan və imkanlardan istifadəyə xüsusi ehtiyac var. 2005-ci ilədək müxtəlif mənbələrdən yatırılmış investisiyaların müqayisəli təhlili də onu göstərir ki, o dövrdə iqtisadi inkişaf üçün qoyulan investisiyaların əhəmiyyətli bir hissəsi xarici dövlətlərlə yanaşı maliyyə qurumlarının da payına düşsə də, son 5 ildə investisiyaların böyük hissəsi daxili investisiyalardır. 2020-ci ildə 120 milyon manat daxili investisiya, 104 milyon manat xarici investisiyaların payına düşüb.

Dövlət büdcəsindən əsas kapitala yönəldilmiş vəsaitlərin xüsusi çəkisi bir xeyli artsada son dövrlər üçün bu ölkə iqtisadiyyatına qoyulmuş sərmayələrin yalnız 21%-ni, ÜDM-nin isə 7%-ni təşkil etmişdir. Lakin inkişaf etmiş ölkələrin böyük əksəriyyətində bank kreditlərindən investisiya mənbəyi kimi daha geniş istifadə edilir.

Rusiyada bütün bank kreditinin ümumi həcmi ÜDM-in 11-13%, həmçinin Avropada 90-130%-ni əhatə etdiyi halda, bizdə təqribən 40%, əsas kapitala

yönəldilmiş kreditlər isə 4% təşkil edib. Ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların tərkib hissəsi kimi sahibkarlıq fəaliyyətinin müxtəlif səviyyəsinə aid edilə bilən cəhət, yəni birgə müəssisələrə və xarici şirkətlərə qoyulan investisiyalar 2006-ci il ilə qarşılaşdırıldıqda 6,8 dəfə çoxalsa da bu dövrdə onun payı 6-10% civarında olması heç də qənaətbəxş deyil.

Əhalinin öz vəsaitlərinin investisiya resurslarında payı da çox zəifdir. Azərbaycanda bankın maliyyələşdirilməsi və investisiya qoyuluşu sahəsində mühüm problemlər mövcuddur. Mövcud vəziyyəti çətinləşdirən əsas səbəblərə kreditləşmə mexanizmlərində qarşılaşdığımız nöqsanları, maliyyə sabitliyinin təmin olunması üçün tədricən sərtləşmiş maliyyə tədbirlərinin aparılmasını və bu kimi bir sıra problemləri aid etmək olar. Yaranmış bütün bu problemləri aradan qaldırmaq məqsədi ilə Mərkəzi Bank və eləcə də digər maliyyə qurumları tərəfindən müxtəlif tədbirlər həyata keçirilməkdədir. Son zamanlar maliyyə və investisiya sahəsində müəyyən islahatlar aparılıb və bu kimi bazarda banklar da fəaliyyət göstərir. Bununla belə, sadə sahibkarlıq subyektləri üçün güzəştli kreditlərin azlığı ipoteka və istehlak kreditləri üzrə yüksək faiz dərəcələri sahibkarlığın lazımınca inkişafı üçün ciddi problemlər yaradır. Bütün bu çatışmazlıqları aradan qaldırmaq, sahibkarlığın inkişafını tam təmin etmək məqsədilə onun maliyyə bazasının gücləndirilməsinin müxtəlif yolları var.

**Şəkil 3: Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin sahələr üzrə həcmi (mln.manatla)**




**Mənbə:** İqtisadiyyat Nazirliyinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Ölkədə iqtisadiyyatın inkişafına 2020-ci ildə bir çox maliyyə mənbələri hesabına təxminən 22 mlrd. manata  yaxın əsas kapital üçün investisiya yönəldilmişdir. Əsas kapitala qoyulan vəsaitin 54%-ni daxili investisiyalar, 46 %-ni isə bir başa xarici investisiyalar təşkil etmişdir.

Ümumilikdə əsas kapital üçün yönəldilmiş investisiyaların təxminən 62,5%-i qeyri-neft bölməsinin, 38,5 %-i isə neft bölməsinin inkişafına sərf edilmişdir.

Şəkil 3-ün təhlili göstərir ki, sənayedə əsas kapitala yönəldilmiş vəsaitlər mədənçıxarma sənayesində üstünlüyünü qoruyub saxlayır.

Əsas kapitala qoyulan investisiyaların 6,9%-i, bir başa qeyri-neft sektoruna yönləndilmiş investisiyaların isə 16,3%-i qeyri-neft sənayesi aid olan bölmələrin inkişafında istifadə olunmuşdur.

**Şəkil 4: Qeyri neft-qaz sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü**




**Mənbə:** İqtisadiyyat Nazirliyinin rəsmi saytı-
https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/Qeyri-neft_yav-sen_2021.pdf

Şəkil 4-ün təhlili göstərir ki, qeyri-neft qaz sənayesində yaradılmış əlavə dəyər 28,7% təşkil edərək digər sahələrdən üstün mövqeyə malikdir.

2020-ci ildə maliyyə qurumlarına maliyyə-kredit təşkilatlarının təqdim etdikləri kreditlərin həcmi ötən  illərlə müqayisədə 24% artaraq 323 mln. manata qədər yüksəlmişdi (Dövlət Statistika Komitəsi, 2021). Bu həcm yalnız 2015-ci ildən 2017-ci ilədək azalma ilə müşahidə edilmişdir. Belə azalma meyli vəsaitlərin qıtlaşması və bahalaşması və eləcə də ölkəyə daxil olan neft gəlirlərinin müəyən qədər azalması ilə sıx bağlı olmuşdur.

Fond tərəfindən ümumilikdə 38 mindən çox investisiya layihəsi həyata keçirilmiş, 38 mindən çox sahibkar, 5,9 milyard manatdan çox güzəştli kreditlər verildiyi qeyd edilir ki, məhz bu kreditlərin hesabına 173 mindən çox vacib olan yeni iş yeri açılmışdır. Fond sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi üçün 40 kredit təşkilatı, o cümlədən 21-ə qədər bank, 6 kredit təşkilatı (bundan sonra artıq BOKT) və həmçinin 13 kredit ittifaqı ilə sıx əməkdaşlıq edir. Hal-hazırda müvəkkil kredit təşkilatlarının çoxlu sayda filialları vardır ki, onların sayı 457-yə çatıb, hansı ki, onlardan 246-sı (54%) regionlardadır.

2020-ci ildə Fond tərəfindən ümumi dəyəri təqribən 397 milyon manatlıq 908 investisiya layihəsinin maliyyələşdirilməsinə ümumi olaraq 126,9 milyon manat güzəştli kredit verilmişdir. Veriiən kreditlər hesabına daha 2725 yeni iş yerinin açılmasına imkanlar yaranmışdır (Sahibkarlığa Kömək Milli Fondunun illik hesabatı, səh 12). Bu vəsaitlərin əsasını maliyyə mənbəyini Fond tərəfindən ötən illərdə verilmiş müvəqqəti kreditlər və kreditlə bağlı əsas borc, faiz və digər gəlirlər təşkil edir.

Güzəştli kreditlərin respublikanın iqtisadi zonaları, eləcə də Bakı şəhəri və qəsəbələr üzrə bölgüsü:

- Bakı şəhəri və qəsəbələrində 32 layihə üzrə 26,7 milyon manat;
- Quba-Xaçmaz iqtisadi zonasında 160 layihəyə üzrə 10,7 milyon manat;
- Gəncə-Qazax iqtisadi zonası üzrə 122 layihə üçün 10,5 milyon manat;
- Abşeron iqtisadi zonasında 33 layihə üzrə 32,3 milyon manat;
- Aran iqtisadi zonası üçün 309 layihəyə görə 35,8 milyon manat;
- Şəki-Zaqatala iqtisadi zonasında 42 layihə üzrə 4,2 milyon manat;
- Yuxarı Qarabağ iqtisadi zonasında 28 layihəyə görə 2,4 milyon manat;
- Dağlıq Şirvan iqtisadi rayonunda 34 layihəyə 1,4 milyon manat;
- Lənkəran iqtisadi zonası üzrə 148 layihəyə 2,9 milyon manat;

İqtisadiyyatın sektorları üzrə çevik kreditlərin bölgüsü:

- kənd təsərrüfatı məhsullarının davamlı istehsalı ilə bağlı 824 layihə üşün 56,5 mil. manat;
- sənaye məhsullarının istehsalı və emalı ilə bağlı 59 layihə üzrə 47,3 milyon manat;
- 6 xidmət (infrastruktur) layihəsinə 1,6 milyon manat;

- 7 turizm layihəsinə 0,7 milyon manat;
- digər (xidmət, tibb və s.) sahələr üzrə 3 layihəyə 5 milyon manat güzəştli kredit verilmişdir.

Maliyyələşdirilmiş layihələr hesabına 2 725 yeni iş yerinin açılması imkanı yaranmışdır (Sahibkarlığa Kömək Milli Fondunun illik hesabatı, səh 12-13):

- Bakı şəhəri və qəsəbələri üzrə 431 yeni iş yeri;
- Quba-Xaçmaz iqtisadi rayonu üzrə 401 yeni iş yeri;
- Aran iqtisadi rayonu üzrə 853 yeni iş yeri;
- Lənkəran iqtisadi rayonu üzrə 118 yeni iş yeri.
- Abşeron iqtisadi rayonu üzrə 514 yeni iş yeri;

Azərbaycanda həmçinin neft sektorundan başqa fəaliyyət göstərən sahələrin inkişafında bir çox beynəlxalq maliyyə-kredit qurumları, məsələn Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam İnkişaf Bankıvə digərləri yaxından iştirak edirlər. Ölkədə müstəqillik əldə olunduqdan sonra 1994-cü ildən başlayaraq 10,2 mlrd. ABŞ dolları məbləğindən bir qədər artıq kredit razılaşması imzalanaraq 74 layihənin reallaşması yekunlaşdırılmışdı. Hazırda Dünya Bankıyla ölkəmizı arasında 29 layihə maliyyələşdirilir, cari əməkdaşlığın başlanğıcından indiyədək ümumi məbləği 3 milyard 786 milyon dollar olan kredit sazişi imzalanıb və 1,8 milyard dollarlıq resurs ayrılmasına hazırlıq işləri davam etdirilir.

Həmçinin, uzunmüddətli kreditlərin həcmi də uyğun dövrdə 2,2 dəfə çoxalaraq 2010-cu illə müqayisədə 6 596,3 mln. azn-dən 14611 mln. azn-ə qədər yüksəlmişdir. Nəticə etibarı ilə uzunmüddətli kreditlərin xüsusi çəkisi artan xətlə 78,8 %-ə yüksəlmişdir (Dövlət Statistika Komitəsi, 2021). Bütün bu göstəricilərə baxmayaraq, nədənsə yerli banklar biznesin maliyyələşdirilməsində heç bir təşəbbüs göstərmir və kreditlərin ödəmə müddəti milli biznesin maraqları ilə heç də bir araya gəlmir. Kredit faiz dərəcəsi yenə yüksəkdir.

# III FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASININ İNVESTİSİYALAŞMASINDA YERLİ BANKLARIN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## 3.1. İşğaldan azad edilmiş ərazilərin iqtisadi imkanları və investisiya qoyuluşunun istiqamətləri

Ermənistanın təcavüzü nəticəsində Qarabağ regionunda çoxsaylı insan tələfatları, kəndlərin, qəsəbə və şəhərlərin yer üzündən silinməsi ilə yanaşı, infrastruktura və kənd təsərrüfatı sahələrinə saysız-hesabsız zərər vurulmuşdu Ənənəvi olaraq, Qarabağ regionunda prioritet olan aqrar-sənaye kompleksinin potensialı məhv edilmişdir, bütün müəssisə və kommunikasiyalar dağıdılmış, torpaq sahələri deqradasiyaya uğradılmışdır. Yararlı torpaq sahələrində qanunsuz kənd təsərrüfatı məhsulları əkilmiş, ilk növbədə buğda yetişdirilmiş və uzun illər ərzində gəlir götürülmüş, beləliklə, milli sərvətlərimiz talanmışdır (http://www.science.gov.az/news/open/15789).

Azərbaycan Respublikasının erməni işğalından azad edilmiş ərazilərinin bərpa edilməsi, davamlı inkişafı, ən müasir infrastrukturun qurulması, milli iqtisadiyyata sürətli inteqrasiyası, mədəniyyət və tarix abidələrinin bərpası və yüksək yaşayış şəraitinin təşkil edilməsi yönündə böyükmiqyaslı layihə və tədbirlər reallaşdırılır. Bu kontekstdə həyata keçirilən layihələr qısa müddətdə bu ərazilərin əməkdaşlıq və sülh zonasına çevrilməsində, iqtisadi inkişafda mühüm rol oynayacaq. Regionun zəngin infrastruktur və resurs imkanlarından səmərəli istifadə, dövlət-özəl tərəfdaşlıq və ən münbit biznes mühitinə əsaslanan iqtisadi fəaliyyətin sağlamlaşdırılması və davamlı köçürmənin təmin edilməsi ölkənin uzunmüddətli inkişaf prioritetlərinə uyğun tədbirlərlə dəstəklənməlidir.

Hökumət tərəfindən aşağıdakı tədbirlərin icrası planlaşdırılmışdır:

- işğaldan azad edilmiş bölgələrdə əmək ehtiyatlarının və iqtisadi resursların düzgün idarə edilməsi üçün vergi güzəştlərindən, sosial sığortadan və digər güzəştlərdən istifadə edilməsi, onların emal sənayesi və xidmət infrastrukturunun təşkilinə istiqamətləndirilməsi;

- işğaldan azad edilmiş ərazilərdə şəxsi təşəbbüskarlığın stimullaşdırılması, investisiyaların cəlb edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, xammal idxalı ilə əlaqədar bu yerlərdə istehsal fəaliyyəti göstərən sahibkarlıq subyektləri üçün gömrük və vergi güzəştlərinin müəyyən edilməsi;

- işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyətini həyata keçirən sahibkarlar üçün kommunal xidmətlərə (təbii qaz, su sərfi və elektrik enerjisinə) güzəştlərin müəyyənləşdirilməsi;

- azad edilmiş ərazilərə müasir bacarıq və biliklərə malik mütəxəssislərin cəlb olunması, o cümlədən iş icazələrinin verilməsi və əmək miqrasiyası kvotalarının müəyyən edilməsi qaydasının təkmilləşdirilməsi;

- "işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi";

- işğaldan azad edilmiş bölgələrdə ekoloji cəhətdən təmiz texnologiyalar tətbiq edən, "yaşıl inkişaf" yaradan və bərpa edilə bilən enerji mənbələrindən istifadə edən investorlara dəstək;

- "işğaldan azad edilmiş ərazilərdə yaşayış massivlərinin tikintisi ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığının inkişafı".

Beynəlxalq təcrübə göstərir ki, zərər müəyyən edildikdən sonra minimum yaşayış səviyyəsinin təmin edilməsi prioritet məsələdir. Minimum yaşayış səviyyəsini təmin edən mühüm amillər aşağıdakılardır:

- azad edilmiş ərazilərin mina təmizlənməsi;
- elektrik enerjisi təchizatı;
- içməli su təchizatı, kanalizasiya və suvarma sistemlərinin bərpası;
- mənzillərin restavrasiyası;

Bu sahələrə qoyulan investisiyalar gələcəkdə sosial və iqtisadi canlanmaya töhfə verəcək. Minatəmizləmə köçürülmüş əhaliyə görə mühüm təhlükəsizlik amilidir. Şirin su təchizatı, kanalizasiya, suvarma kanallarının bərpası insanların həyat səviyyəsinin yaxşılaşmasına və növbəti mərhələdə ailələrin iqtisadi dirçəlişinə kömək edəcəkdir. Minimum həyat səviyyəsinin təmin edilməsi sonrakı sosial-

iqtisadi inkişafın göstəricisidir. Erkən sosial-iqtisadi dəyişikliyin əhəmiyyəti münaqişədən sonrakı dövrdə insanların tədricən köçürülməsinə və onların yardım asılılığından sürətlə azad edilməsinə səbəb olur. Beləliklə, təhsil, səhiyyə və telekommunikasiya vasitələrinin koordinasiyalı bərpası insanların adaptasiyası prosesini sürətləndirəcək. Eyni zamanda, məşğulluğun artırılması üçün biznesin dəstəklənməsi, bilavasitə ev təsərrüfatı kimi sahələrin inkişafına gətirib çıxaracaq tədbirlərin aktivləşdirilməsi məqsədəuyğundur. Əlavə olaraq, iqtisadiyyatın canlanmasına xidmət edəcək bank sektorlarına, xüsusilə də turizm sahəsinə diqqət yetirilməlidir. Qarabağ iqtisadi zonasında gəlirli sahələri dərinləşdirmək və inkişaf etdirmək lazımdır. Maliyyə resurslarının müxtəlifliyi o deməkdir ki, münaqişədən sonra bərpaya ehtiyacı olan ərazilər eyni sürətlə bərpa olunur. Sahə tədqiqatlarına beynəlxalq təşkilatlar, dövlət qurumları, özəl sektor, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və s. belə təşkilatlar ərazilərin münaqişədən sonra yenidən qurulmasında maraqlı tərəf kimi çıxış edirlər. Təşkilatların mandatlarına uyğun olaraq, vəsaitlərin toplanması əsas prioritetlərdən biri olmalıdır.

Hazırkı şəraitdə infrastrukturun sistemli və kompleks şəkildə bərpa olunması gərəkdir və bu işlərin intensiv şəkildə aparılması üçün işlək və səmərəli maliyyə-kredit mexanizmləri tələb olunur. Yaxın perspektivdə regionun aqrar-sənaye kompleksinin bərpa edilməsi və inkişafına əsaslı zəminin yaradılması üçün müxtəlif mənbələrdən fəal şəkildə maliyyə-kredit resurslarının cəlb edilməsi və istifadəsi mexanizmlərinin daha uyğun modellərinin tətbiqi vacib məsələlər kimi diqqət mərkəzində saxlanılmalıdır. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə aqrar səhmdar cəmiyyətlərinin təşkilinə üstünlük verilməsi fikirləri üstünlük təşkil edir və Qarabağ regionunda ekoloji təmiz, ətraf mühitə zərər vurmayan və "yaşıl iqtisadiyyat" meyarlarına cavab verən aqroparkların və yüksək, həm də "ağıllı" texnologiyalar əsaslı aqrosənaye parklarının yaradılması prioritetlik təşkil edəcəkdir, bunlar isə yüksək maliyyə-investisiya tutumlu layihələrin həyata keçirilməsini şərtləndirir. Aqrar-sənaye kompleksinin inkişaf proseslərinin intensiv təşkili isə təkmilləşdirilmiş maliyyə-kredit mexanizmlərinin hazırlanması və tətbiqindən bilavasitə asılıdır (http://www.science.gov.az/news/open/15789). Regionun

dayanıqlı və sürətli inkişafında aqrar-sənaye kompleksinin aparıcı rolu olacaqdır, belə ki, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahələrinin, həm bitkiçilik, həm də heyvandarlığın inkişafı üçün güclü potensial və resurslar vardır. Azad edilmiş bölgələrin güclü iqtisadi potensialı ölkəmizin yüksəlişinə böyük təkan verəcək.

Belə ki: "Azərbaycanın işğal altında olan torpaqlarının geri alınması həmin ərazilərdə iqtisadiyyatın bərpası üçün təcili addımların atılmasını vacib etmişdir. Qarabağ regionunda iqtisadiyyatın müxtəlif sahələri, xüsusilə də kənd təsərrüfatının inkişafı istiqamətində ciddi addımlar atılmalıdır" (Tükanov M., 2021. Səh. 217). Kənd təsərrüfatının inkişaf potensialının yüksək olması isə, ümumilikdə aqrar-sənaye kompleksinin geniş həcmdə fəaliyyəti üçün başlıca şərtidir. Qarabağdakı rayonların əksəriyyətində investisiya tutumlu kənd təsərrüfatı və aqrar-sənaye istiqamətli fəaliyyət sahələri vardır. Məsələn, Laçın rayonunda investisiya tutumlu sahələr kimi kənd təsərrüfatı, heyvandarlıq və s. sahələr daha çox diqqət çəkirlər. Analoji xüsusiyyətlər Kəlbəcər rayonu üçün də xeyli xarakterikdir.

Maliyyə-kredit resurslarının əlçatan olması şəraitində bu istiqamətlər üzrə sahibkarlıq fəaliyyətinin və biznesin səmərəliliyini yüksəltmək mümkün olar və Qarabağ regionunun dirçəldilməsində daha çox töhfələr vermək imkanı yaranar. Bu regionda emal və ərzaq sənayesinin inkişaf etdirilməsi üçün əsaslı potensialın olması, eyni zamanda resurs potensialının güclü qiymətləndirilməsi amilləri ilə bərabər, şübhəsiz maliyyə və kredit mexanizmlərinin maksimum işlək formalarının hazırlanması və tətbiqi vacibdir. İşğaldan azad edilmiş ərazilərdə aqrar-sənaye kompleksinin sürətli inkişafı ət və ət məhsullarına, o cümlədən süd və süd məhsullarına olan daxili tələbatı tam ödəməyə imkan verəcək.

1995-ci ildən Azərbaycana 140 milyard dollara yaxın xarici investisiya cəlb edilib. Bu investisiyaların 30%-i Azərbaycan hökuməti tərəfindən beynəlxalq maliyyə institutlarından, eləcə də ölkə daxilində fəaliyyət göstərən müxtəlif özəl qurumlardan alınan kreditlər hesabınadır. İnvestisiyaların digər hissəsi isə birbaşa xarici investisiya kimi qeydə alınır (Azərbaycanın makroiqtisadi vəziyyəti. 2021, s. 21). Belə qənaətə gəlmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəyə investisiya

marağını daha da artıracaq və yaxın illərdə regiona investisiya üçün nəzərdə tutulan investisiyaların həcmi bir neçə dəfə artacaq. Bölgənin siyasi-coğrafi mövqeyi, potensial resursları həm yerli, həm də xarici investorlar üçün maraqlıdır.

Bu gün bir çox beynəlxalq təşkilatlar və biznes qurumları öz fəaliyyətlərinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərə sərmayə qoymağa hazırdırlar. Kiçik və orta sahibkarlığın ilkin mərhələsində qoyulacaq investisiyalar növbəti mərhələdə irimiqyaslı investisiyalar üçün xüsusi stimul rolunu oynayacaq. İnvestisiya cəlb etməzdən əvvəl prioritet investisiya planı və region üzrə istiqamətlər çərçivəsində konkret strategiyalar hazırlamaq lazımdır. Belə ki, rayonun potensial resursları nəzərdən keçirilməli, regionların mövcud istehsal amilləri nəzərə alınmalı, dövlətdən və eyni zamanda özəl qurumlardan investisiya qoyuluşu üçün təkliflər paketi formalaşdırılaraq təqdim edilməlidir.

Ölkəmizdə investisiyaların əsas hissəsi məhsul istehsalı sahəsinə yönəldilib. Son 5 ilin məlumatları bunu əyani şəkildə göstərir. Təkcə son 1 ili nəzərdən keçirsək görərik ki, ölkə üzrə 66,1% investisiyalar məhsul istehsalına, 26,8% xidmət sahələrinə, 7,1%-i isə yaşayış evlərinin tikintisinə yönəldilmişdir (Azərbaycanda makroiqtisadi vəziyyət. 2021, səh. 34). Həmçinin təhlillər göstərir ki, investisiyaların həcminin artmasına baxmayaraq, regionlarda müəssisə və təşkilatların investisiya fəaliyyətini məhdudlaşdıran bir sıra amillər hələ də mövcuddur. Bu amillərə öz maliyyə mənbələrinin kifayət qədər olmamasını, kommersiya kreditlərinin yüksək faiz dərəcələrini, investisiya layihələrinin həyata keçirilməsi üçün kredit mənbələri əldə etmə mexanizminin mürəkkəbliyini, investisiya layihələrinin icrası ilə əlaqəli ümumi investisiya risklərini və s. aid etmək olar. Beləliklə, investisiya cəlbediciliyinin idarə olunması prinsipinə əsaslanan regionun inkişafı üçün investisiya strategiyası ərazinin sosial-iqtisadi inkişafının əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinə imkan verəcəkdir. İnvestisiya fəaliyyətinin strateji hədəflərinin formalaşması, ilk növbədə, iqtisadi inkişafın ümumi strategiyasının məqsədlər sistemindən başlamalıdır. Bu hədəflər fərqli ola bilər.

Regionun sahə quruluşu investisiya strategiyasının istiqamətlərini seçmək üçün əsasdır. Ümumilikdə, investisiya strategiyasının həyata keçirilməsi mexanizmi

investisiyaların istifadəsinin səmərəliliyini maksimuma çatdırmaq və strategiya ilə əlaqəli investisiya xərclərini və risklərini minimuma endirmək üçün hazırlanr. İnvestisiya strategiyasının həyata keçirilməsi üçün mexanizmin inkişafı investisiya fəaliyyətinin idarə edilməsi üçün yeni təşkilati strukturların formalaşmasından, investisiya mədəniyyətinin yeni prinsiplərinin tətbiq edilməsindən, strateji investisiyalara nəzarət və istifadənin səmərəli sisteminin yaradılmasından ibarətdir. Bütün bunlar son nəticədə regional investisiya siyasətinin hazırlanması və reallaşdırılması səviyyəsindən xeyli asılıdır.

Qarabağın mövcud geoloji vəziyyətini, iqlim şəraitini və potensial ehtiyatlarını nəzərə alaraq investisiyaların cəlb edilməsi üçün hansı sahələrin prioritet olduğunu müəyyən etmək olar:

1. Turizm sektoru. Qarabağın Kiçik Qafqazın dağlarında yerləşməsi, xüsusi potensial coğrafi mövqeyi regionda turizm potensialının inkişafına əhəmiyyətli təkan ola bilər. Qarabağ bölgəsinin turizm potensialından əldə edilən gəlir bütövlükdə ölkənin turizm potensialından əldə olunan gəlirdən çox ola bilər. Bunun üçün tarixi yerlərin, eləcə də regionun təbiətini və ekoloji potensialını bərpa etmək, eləcə də beynəlxalq turizm təşkilatlarının qarşıya qoyduğu məqsədləri tətbiq etməklə müasir turizm üçün şərait formalaşdırmaq lazımdır. Regionda müxtəlif tibbi əhəmiyyətli resursların mövcudluğu eləcə də müalicə turizminin inkişafına dəstək verəcəkdir.

2. Aqrar sahə. Rayonun əlverişli iqlim şəraitinə, eləcə də kənd təsərrüfatına yararlı torpaqlara mənsub olması kənd təsərrüfatının, bitkiçiliyin, tərəvəzçiliyin, eləcə də heyvandarlığın inkişafına böyük təkan verəcək. 7 rayonda kənd təsərrüfatına yararlı torpaqların ümumi sahəsi 535 min hektardır. Bu baxımdan kənd təsərrüfatının ən müasir texnologiyalar vasitəsilə inkişafı yerli tələbatın ödənilməsinə kömək etməklə yanaşı, məhsulların xarici ölkələrə ixracı üçün dəyər yaradacaq.

3. Mədən sənayesi. Qarabağ ərazisində qeyri-metal filiz yataqları dağ-kimyəvi xammal, qiymətli-ziynət daşları, mişar, inşaat və üzlük daşları, büzücü maddələr, sement xammalı, beton doldurucuları və mineral boyalar, yol-tikinti

xammalı olaraq inşaat materiallarıyla zəngindir. Bu sənayenin inkişaf etdirilməsi həm də paralel olaraq müxtəlif tip məhsulların hazırlanması üçün xüsusi zəmin yaradır.

4. Enerji istehsalı. Qarabağ regionunda xüsusi əhəmiyyəti olan bol sulu çaylar və eləcə də su anbarları mövcuddur. Burada inşa ediləcək elektrik stansiyaları xüsusi olaraq ölkənin enerji ilə təminatının və eləcə də enerji ixracının müəyyən payını öz üzərinə götürəcəkdir.

5. Mineral sular. Qarabağda təbii və tibbi əhəmiyyətli mineral su bulaqları vardır ki, onların istehsalı və qablaşdırılaraq dünya bazarına satışa çıxarılması çox uğur qazanmış investisiyalardandır. Bu sulardan müalicə məqsədli istifadə olunması həm də regional tibbi turizmə xüsusi təkan olacaq.

6. Baramaçılıq. Ümumiyyətlə, Qarabağ regionunun cənub hissəsində yerləşən rayonların əsas fəaliyyət sahələri incələndikdə, əsas olaraq baramaçılığın xüsusi gəlir qaynağı olduğu təsbit edilməkdədir. Bu baxımdan, Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli rayonlarında xüsusi baramaçılıq və ipəkçilik məntəqələrinin fəaliyyət göstərməsi regionun və eyni zamanda yan sahələrin inkişafına xüsusi təsir göstərəcəkdir.

7. Şərabçılıq. Qarabağ regionunda xüsusi üzüm plantasiyalarının olması və əhalinin bu predmetdə fəaliyyət sahəsi ilə mütəmadi məşğul olması şərabçılığın inkişaf etdirilməsi üçün zəmin yaradır. Bu baxımdan, Qarabağın bir çox rayonlarında şərab zavodlarının tikintisi və üzüm plantasiyalarının salınması mühüm və zəruridir.

8. Xalçaçılıq. Danılmaz faktdır ki, Qarabağ xalçaları hər zaman dünyada ən baha hesab edilən və ən keyfiyyətli xalça hesab olunur. Xalçaçılıq mədəniyyətinin və istehsalının davam etdirilməsi növbəti mərhələlərdə xüsusi gəlir gətirən sahə hesab olunacaqdır.

9. Logistika sektoru. Yeni qurulacaq Bakı-Naxçıvan-Türkiyə dəmir yolu xəttinin ərazidən keçməsi, ölkənin Şərq-Qərb və eləcə də Şimal-Cənub dəhlizinin kəsişmə nöqtəsində olması, tarixi İpək yolunun bərpası regionun əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək imkanını formalaşdıracaqdır. Bu kontekstdə

yeni ticarət qovşaqlarının yaradılması, logistika mərkəzlərinin qurulması və eləcə də hava nəqliyyatının təmin edilməsi məqsədi ilə yeni hava limanlarının tikintisi xüsusi önəm daşıyır. Bu sahələrin inkişafı, müxtəlif bizneslərin və yeni investisiyaların cəlb edilməsi üçün dövlət tərəfindən bir sıra strategiyalar müəyyənləşdirilməli, bu istiqamətdə xüsusi planlar hazırlanmalı, istər yerli investorlar, istərsə də xarici investorların Qarabağ regionuna yatıracağı investisiyaların dövlət tərəfindən qorunması və qarantı müəyyənləşdirilməlidir.

Hal-hazırda Qarabağda innovativ səmərəliliyinin artırılması üçün texnoloji park və mərkəzlərin açılması planlaşdırılır. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində İnnovasiyalar Agentliyi, Türkiyənin ən böyük sənaye bölgələrindən birində yerləşən və 130 texnoloji şirkəti dəstəkləyən GOSB Texnoparkı ilə memorandum imzalayaraq bu yolda ilk addımı atdı. Artıq Qarabağda bərpa olunan enerji mənbələrinin istifadəsini, enerji səmərəliliyini, ekoloji cəhətdən təmiz texnologiyaları, o cümlədən nəqliyyat vasitələrinin istifadəsini və s. əhatə edəcək yaşıl zona konsepsiyasının inkişafına başlanmışdır.

İşğaldan təmizlənmiş torpaqlarımızın bərpası, müasir infrastrukturun qurulması Qarabağın regional inkişafının prioritet istiqamətlərindəndir. Əks təqdidə regionun iqtisadi inkişafını dəstəkləmək qeyri-mümkündür. Restavrasiya proseslərinin reallaşdırılması Azərbaycanın iqtisadiyyatının inkişafına dəstək verəcək, çoxsaylı iş yerlərinin açılmasına imkan yaradacaqdır. İnfrastruktur tamamilə dağıdılması və buna görə də bu regionun bərpasına sıfırdan başlanılması azad edilmiş ərazilərdə texnoloji avadanlıqların iş prinsiplərini asanlaşdıdır. Qarabağın restavrasiyası zamanı texnoloji yeniliklərdən istifadə edilməsi və müasir infrastrukturun qurulması qarşıya qoyulmuş əsas məqsədlərdən biridir. Bu təcrübənin gələcəkdə bərpaya ehtiyacı olan rayonlara da şamil olunması mümkündür.

Ümumiyyətlə, bərpa prosesində müəyyən edilmiş əsas məqsədlərə aşağıdakılar daxildir:

- Bərpa prosesinin yüksək keyfiyyətlə və qənaətlə həyata keçirilməsi;

- Müasir standartlara uyğun inkişaf modelinin qurulması;
- İşğaldan azad edilmiş ərazilərin yüksək texnologiyalı ərazilərə çevrilməsi;
- texnologiya şirkətlərinin restavrasiya işlərinə cəlb olunması;

Yuxarıda göstərilən tədbirlərdən əlavə, 2020-ci il fevral ayında təsdiqlənmiş rəsmi sənəddə “azad edilmiş ərazilərə kütləvi şəkildə dönüş” beş əsas prioritetdən biri olaraq göstərilib. Sənəd uğurlu inkişaf üçün iki məqsəd müəyyənləşdirir: davamlı köçürmə və iqtisadi proseslərə reinteqrasiya. Qarşıya qoyulan məqsədlər reallaşdırılarkən rayonun iqtisadi gücündən yararlanmaq, köçürülmə səviyyəsini işğal edilməzdən öncəki vəziyyətə çatdırmaq, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi fəallığında xüsusi çəkisini işğaldan əvvəlki səviyyəyə çatdırmaq lazımdır. İşğaldan azad edilmiş rayonların restavrasiyası ancaq Qarabağ bölgəsinin yox, bütövlükdə Azərbaycanın iqtisadiyyatı üçün də böyük əhəmiyyət kəsb edir. Bərpa prosesinin formasını müəyyənləşdirmək məqsədi ilə bir çox iqtisadi sahələridə layihələri və məqsədləri nəzərdən keçirəcəyik.

İşğaldan azad edilmiş ərazilərin bərpası üçün ilk öncə yolların bərpası vacibdir. “Böyük Qayıdış” layihəsinin ilk mərhələsi də elə azad edilmiş bölgədə təzə yol-nəqliyyat sisteminin tətbiqidir. Həyata keçirilən nəqliyyat proqramları Qarabağa şimaldan, cənubdan, şərqdən köçməyə imkan verəcək.

Bərpa prosesinin qarşısındakı ikinci vacib məsələ enerji infrastrukturunun yaradılması, təhlükəsizliyinin təminatı və müasir standartlara əsaslanan enerji strukturu yaradaraq respublikanın ümumi enerji blokuna inteqrasiyasıdır. Sevindirici haldır ki, işğaldan azad olunmuş rayonlarda vaxtı ilə fəailiyyət göstərmiş su elektrik stansiyaları bərpa edilir. Ermənilər işqalları altında olarkən bu ərazilərdəki bəzi stansiyalarını dağıdıb, onların faydalı hissələrini sıradan çıxarıb, özəlləşdirə bilmədiklərini isə yerindəcə məhv ediblər. Nəticədəburada olan onlarla su elektrik stansiyaları bərbad vəziyyətə düşüb ki, indi həmin stansiyalar bərpası mütləqdi.

İşğaldan azad edilmiş ərazilərdə bir də  şəhər və kəndlərin bərpası əsas məqsəddir. Yaşanan dağıntılar bu istiqamətdə ciddi işə ehtiyac olduğunu göstərir. İşğal nəticəsində 10 mindən artıq evin ziyan gördüyü təxmin edilir ki, artıq bərpa

əsas istiqamətlər müəyyənləşdirilib: çoxmərtəbəli binaların yenidən qurulması, kəndlərdə əhalinin optimal sayının təyin edilməsi. İşğala qədər dağ kəndlərin bəzilərinin əhalisinin sayı çox az - 25-55 nəfər aralığında idi.

Xarici dövlətlər və şirkətlər də Qarabağ regionunda restavrasiyanın aparılmasına çox maraqlıdırlar və hətta bəziləri artıq müəyyən layihə və təkliflərlə də çıxış edirlər verirlər. Prezidentin sözlərinə görə, regionda aparılan restavrasiyada yalnız bu illər ərzində Azərbaycanla vicdanlı qonşuluq və dostluq münasibətlərində olmuş dövlətlərə məxsus şirkətləri iştirakçı ola bilər. Bir çox xarici şirkətləri artıq bərpa prosesinə cəlb olunub və ən sıx tərəfdaşlıq münasibətləri müharibə illərində daima Azərbaycanın dəstəkçisi olan Türkiyənin tikinti şirkətləri ilə yaradılıb. Türkiyənin aparıcı iş adamlarından ibarət TÜMKİAD regiona 50 mil. ABŞ dolları həcmində sərmayə qoyacağı planını açıqladı; Türkiyə Şuşada ibtidai məktəb tikmək təklifilə də çıxış edib. İtaliyaya məxsus Ansaldo Energia şirkətinin əməkdaşları ilə dörd yarımstansiyaya lazım olacaq avadanlıqların gətirilməsi ilə əlaqədar razılaşma imzalanıb ki, dəyəri 7 mil. ABŞ dolları olan və 110 KV gücündə olacaq stansiyalar Kəlbəcər, Füzuli, Ağdam və Qubadlıda yerləşir (https://aztv.az/az/news/14618/cebrayil-zengilan-qubadli-ve-agdamda-yarimstansiyalar-tikilir).

Artıq Azərbaycanda çoxsaylı layihələrin iştirakçısı olan, Böyük Britaniyada qeydiyyatdan keçmiş "Anglo Asian Mining" azad edilmiş ərazilərdə fəaliyyətini genişləndirmək niyyətindədir. Bundan əlavə, Britaniya şirkətləri artıq Füzulidə minatəmizləmə, şəhərsalma və infrastrukturun inkişafı layihələrində iştirak edirlər. Qarabağın iqtisadi bərpasına maraq göstərən daha bir ölkə Macarıstan da bu istiqamətdə bəzi layihələr reallaşdırır və hətta minalanmış ərazilərin təmizlənməsi prosesində yaxından iştirak edərək, kömək məqsədi ilə 25 min avro pul vəsaiti də təklif edib. Bu ölkələrdən başqa, İsrail, Yaponiya və İran yenidənqurma layihələrinə sərmayə qoymaqda maraqlıdır. Restavrasiya proseslərinə xarici şirkətlərin cəlb olunması mütləqdir. Bu da ondan irəli gəlir ki, bərpa işlərinin miqyası böyükdür və bərpa prosesini yalnız yerli şirkətlərin vəsaiti hesabına yüksək keyfiyyətlə, həm də zaman baxımından tezliklə reallaşdırmaq mümkün deyil. Eyni zamanda xarici investorların ölkəyə gəlişi, işğaldan azad edilmiş torpaqların bərpasında iştirakı

müəyyən üstünlüklər yaradacaq, özləriylə bir çox texnoloji yeniliklər gətirəcəklər. İşğaldan azad edilmiş ərazilərin böyük potensialı restavrasiyada maraqlı şirkətlərin sayını da artacaq.

## 3.2. İşğaldan azad edilmiş ərazilərin bərpasında yerli bankların investisiya fəaliyyətinin təkmilləşdirilməsi

Azad edilmiş ərazilərin bərpası işinin təşkili güclü investisiya axınları, maliyyə və kredit resurslarının cəlb edilməsi ilə bilavasitə bağlıdır. Bu məqsədlərlə həm yerli, həm də xarici investisiya-maliyyə mənbələrinin mobilizasiyası vacibdir. Qeyd edək ki, 2021-ci il üçün azad edilmiş rayonlara “böyük qayıdış”ın təmin edilməsinə dövlət büdcəsindən 2,2 mlrd. manat vəsait nəzərdə tutulmuşdur. Bu faktın özü də Qarabağ regionunda şəffaf, əlçatan və maksimum səmərəli maliyyə-kredit mexanizmlərinin təşkilini, o cümlədən regionda aqrar-sənaye sahələrinin dirçəldilməsində bu mexanizmlərdən geniş istifadəni zəruri edir.

Qarabağın bərpası prosesində bir sıra məsələlərə daha çox diqqət yetirilməsini vacib sayırıq:

- Qarabağ regionunda aqrar-sənaye sahələrinin dirçəldilməsi vəzifələri və prioritetləri əsas götürülməklə, kənd təsərrüfatı və aqrar-sənaye sahələrinin maliyyə-investisiya mexanizmlərinin formalaşdırılması təşkil edilməlidir;
- regionda maliyyə-kredit və investisiya mexanizmlərinin inkişafına və əlçatanlığına imkan verən maliyyə-kredit və investisiya müəssisələri və birlikləri, fondlar, assosiasiyalar daxil olan şəbəkənin təşkili vacib şərtlərdəndir;
- aqrar-sənaye sahələrinin ayrı-ayrı istiqamətləri üzrə iri maliyyə-kredit və investisiyatutumlu layihələrin işlənib hazırlanması yerli və beynəlxalq maliyyə-kredit təşkilatları, investisiya fondları, başqa sözlə beynəlxalq maliyyə və iqtisadi qurumlar qarşısında təqdimatlar keçirilməli, potensial maliyyə-kredit və investisiya fəaliyyəti üzrə partnyorların ölkəmizə – Qarabağ regionuna fəal gəlişinə nail olunmalıdır.

Məlumdur ki, regional investisiya siyasəti regionun davamlı sosial-iqtisadi inkişafı məqsədilə bütün mülkiyyət formalarındakı investisiya resurslarının cəlb

edilməsi və səmərəli istifadəsi üçün dövlət, ərazi hakimiyyət orqanları və idarələri tərəfindən həyata keçirilən tədbirlər sistemidir. Regional investisiya siyasəti investisiya fəaliyyətinin stimullaşdırılmasına və regionda əlverişli investisiya mühitinin yaradılmasına yönəldilmiş investisiya proseslərini tənzimləmək üçün dövlət orqanlarının və ölkənin təsis qurumlarının prinsipləri, metodları və tədbirləri məcmusudur. Regional investisiya siyasətinin məqsədi bütün cəmiyyətin maraqlarına uyğun əlverişli investisiya imkanları və amillərindən maksimum istifadə etmək və investisiya risklərinin müəyyən bir regionun sosial-iqtisadi vəziyyətinə mənfi təsirini minimuma endirməkdir. Təcrübi olaraq regional investisiya siyasətinin məqsədlərinə nail olmaq onun həyata keçirilməsi mexanizminin səmərəli təşkili ilə əlaqədardır.

Regional investisiya fəaliyyətinin istiqamətlərinin formalaşdırılması və həyata keçirilməsi sistemi bir-birinə bağlı olan bir sıra bloklardan ibarətdir. Birinci bloka regional investisiya siyasətinin və buna uyğun olaraq həyata keçirilmə mexanizminin asılı olacağı əsas amillər daxildir. Bunlara aiddir:

- regiondakı investisiya mühiti;
- regionun investisiya potensialının formalaşması göstəriciləri;
- investisiya risklərinin səviyyəsi;
- daxili və xarici təsir amilləri.

Yuxarıda göstərilən amillər əsasən regional iqtisadiyyatın xüsusiyyətləri ilə əlaqələndirilir ki, bu da öz növbəsində təbii-coğrafi, tarixi, demoqrafik və digər amillər kompleksini müəyyənləşdirir. Xarici amillər respublika qanunvericiliyi, milli iqtisadi və investisiya siyasəti ilə müəyyən edilmiş fəaliyyət şərtlərinin təsiri ilə əlaqələndirilir. İkinci blok birbaşa investisiya siyasətinin formalaşdırılması mərhələlərini əhatə edir: - investisiya siyasətinin hədəflərinin və əsas prioritetlərinin müəyyənləşdirilməsi; - regional investisiya proqramının formalaşdırılması; - regional investisiya siyasətinin həyata keçirilməsi prinsiplərinin hazırlanması (Герасенко В.П. 2016, с. 67). Regional investisiya fəaliyyətinin hədəfləri və prioritetləri müəyyən bir regionun ümumi sosial-iqtisadi siyasətinin məqsəd və vəzifələrindən asılıdır. İnvestisiya siyasətinin həyata keçirilmə mexanizminin üçüncü bloku

nəzərdə tutulan məqsədlərə çatmaq üçün bir sıra elementlərdən ibarətdir. Bu blokun əsas elementləri tətbiq olunan iqtisadi, inzibati, sosial-psixoloji idarəetmə metodları kompleksi və fəaliyyətinin hüquqi, təşkilati, informasiya təminatı sistemidir. Regionun sosial-iqtisadi inkişafının nəzərdə tutulan məqsədlərinə çatmaq üçün regional hakimiyyət orqanlarının investisiya prosesinin bütün iştirakçılarına məqsədyönlü təsiri investisiya siyasətinin həyata keçirilməsi mexanizminin mahiyyətini təşkil edir.

Regional investisiya fəaliyyətinin həyata keçirilməsi mexanizmi sosial-iqtisadi prioritet vəzifələri həll etmək üçün dövlət orqanlarının investisiya prosesi iştirakçılarına təsir göstərdiyi bir sıra alətlər (metodlar, modellər) kimi başa düşülməlidir. Təklif olunan mexanizmin əsas məqsədləri bunlardır:

- regiondakı investisiya mənbələrinin səfərbər edilməsi;
- investisiyaların ən yüksək səmərəliliyin təmin olunduğu iqtisadiyyatın sahələrində formalaşması və istiqamətləndirilməsi;
- investisiya istifadəsinin səmərəliliyinin artırılması;
- regiondakı investisiya fəaliyyətinin inkişafı.

Dövlət tərəfindən postmüharibə ərazilərinin bərpa olunması və dirçəldilməsi istiqamətində tədbirlər görülməkdədir. 4 yanvar 2021-ci il tarixli ölkə Prezidentinin “Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Sərəncam ilə şuranın üzvlərinin təsdiq olunması bunun bariz nümunəsidir. Bu isə Qarabağın dirçəldilməsi prioritetləri ilə bağlı problemlərin daha dərindən öyrənilməsinə imkan verir. Bərpa işləri üzrə hədəflərin elmi-iqtisadi və sosial amillər baxımından obyektiv olaraq əsaslandırılması üçün daha geniş imkanlar formalaşdırılır. Kənd təsərrüfatının inkişafı məqsədilə əlverişli olan potensial nöqteyi-nəzərindən bu istiqamətdə fəaliyyətin gücləndirilməsi mümkündür. Həm də aqrar sektorun genişləndirilməsi, emal müəssisələrinin yaradılması hesabına müxtəlif ərzaq məhsullarının istehsal imkanları artar. Beynəlxalq təcrübədən bəhrələnməklə, maksimum ekoloji təmiz ərzaq məhsullarının yetişdirilməsi və tədarük edilməsi perspektivləri diqqət çəkir. Regionda infrastruktur obyektləri şəbəkəsinin çevik və daha intensiv şəkildə

yaradılması günün tələbidir. Ərazilərdə enerjidaşıyıcılarla təminatın gücləndirilməsi regionun daha tez bərpasına və dirçəldilməsinə gətirib çıxarar. Enerji infrastrukturunun yaradılması ilə bərabər, həm də bərpa olunan enerji üzrə düzgün imkanın hesablanmasına da xüsusi önəm verilməkdədir. Bu ərazilərin külək, hidroenerji, geotermal, bioenerji və günəş enerjisi kimi bərpa olunan güclü enerji mənbələri vardır. Qeyd olunan potensialının qiymətləndirilməsindən ötrü daha çox işlər görülməli və iqtisadi səmərəlilik qiymətləndirilməlidir.

Ümumiyyətlə, regionların uzunmüddətli davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi Azərbaycanda regional idarəetmənin əsas problemlərindən biridir. Bu problemin həll edilməsi üçün lazım olan ən vacib metodoloji vəzifə regional sosial-iqtisadi sistemin davamlı inkişaf trayektoriyası boyunca hərəkətini təmin edən amillərin müəyyənləşdirilməsidir. Regional inkişaf insan həyatının bütün sahələrini əhatə edir. Müasir şəraitdə investisiya cəlbediciliyi amili regiona böyük təsir göstərir. Regionun sosial-iqtisadi inkişaf səviyyəsindəki artım xüsusən xarici investisiyaların cəlb edilməsi nəticəsində baş verir. İnvestisiyalar sayəsində ümumi regional məhsulunda, büdcə gəlirlərində, əhalinin məşğulluğunda və s. artım əldə etmək olar. Regionun sosial-iqtisadi inkişafına təsir edən göstəricilərdən sahibkarlıq fəailiyyətini xüsusi vurğulamaq lazımdır. Kiçik və orta sahibkarlığın inkişaf səviyyəsi birbaşa ölkə iqtisadiyyatının inkişaf səviyyəsini müəyyənləşdirir. Odur ki, əsas vəzifələrdən biri bu sahələrə maliyyə dəstəyinin genişləndirilməsidir və bununla bağlı bir sıra dəstək proqramları mövcuddur. Belə proqramlar daha çox regional və bələdiyyələrin maliyyə dəstəyi hər il dövlət və yerli büdcələr, habelə digər mənbələr hesabına həyata keçirilir. Sahibkarlığın inkişafı, bir qayda olaraq, əmək ehtiyatlarına tələbatın artmasına səbəb olur və sahibkarların təhsil səviyyəsinin yüksəldilməsini tələb edir. Nəticə etibarı ilə regionun əmək potensialını artırmaq üçün hər şans var. Regional hakimiyyət orqanları tərəfindən məqsədyönlü şəkildə yaradılmış və dəstəklənən regiondakı kiçik və orta sahibkarlıq üçün əlverişli iş şəraiti, fikrimizcə, bu sahənin gəlirliliyini artıracaq və nəticədə vergi bazasının həcmini və regional büdcənin gəlir hissəsini artıracaqdır. Bütün bunlar ərazinin maliyyə potensialını artırmaq üçün ilkin şərtlərin mövcudluğunu göstərir. Bəzi

regionların ixtisaslaşmış sahələri üçün xarakterik olan amillər daha yüksək əhəmiyyətə malikdir. Sahə amilləri müəyyən bir sənayenin rəqabət qabiliyyət səviyyəsi, təbiəti istismar edən sənaye sahələrinin xammalla təminat səviyyəsi, kənd təsərrüfatı xammalı ilə təminat səviyyəsi, ərzaq, bilik tutumlu sənaye sahələrinin ixtisaslı kadrlarla təminat səviyyəsi kimi amillərlə xarakterizə olunur (Зулпукаров А., 2018: s. 98).

Dünya təcrübəsində strateji və əlaqələndirilmiş investisiyalar donor və ya maliyyə koordinasiya mərkəzinin yaradılması kimi başa düşülür. Belə ki, investisiya ehtiyaclarının müəyyənləşdirilməsi ehtiyacların düzgün maliyyə mərkəzlərindən təmin olunmasına və nəticədə investisiyaların düzgün istiqamətlərə yönəldilməsinə səbəb olacaqdır. İşğaldan azad edilmiş ərazilərimiz iqtisadi fəaliyyətin bir çox sahələrinin inkişafı üçün potensiala malikdir. Kənd təsərrüfatında heyvandarlığın və arı saxlanılması imkanları demək olar ki, Qarabağın bütün rayonlarına aiddir. Kəlbəcərdə balıqçılıq genişləndirilə bilər. Şuşada ipəkçilik, ayrı-ayrı rayonlar taxıl istehsalı üçün geniş imkanlara malikdir. Kəlbəcər, Tərtər və Füzuli rayonlarının ət və süd məhsullarının, Laçın və ətraf rayonlarda isə dəri məmulatlarının emalı üçün böyük potensialı var. Kəlbəcər və Zəngilan rayonlarında filiz yataqları, xromit ehtiyatları, Kəlbəcərdə zərgərlik sənayesini inkişafına imkan yaradır. Bundan əlavə, dağ turizmi, ekoturizm, müalicə turizmi və mədəniyyət turizmi üçün əlverişli olan digər rayon və şəhərlərin potensialından Şuşada, Laçında, Kəlbəcərdə genişləndirməklə Qarabağın sosial və iqtisadi dirçəlişinə dəstək olmaq mümkündür. Hidroenergetika potensialına misal olaraq Xudafərin, Qız Qalası SES və Tərtər SES-lərini göstərmək olar.

Beynəlxalq təcrübə göstərir ki, risklər hesablanarkən iqtisadiyyata və energetikaya birbaşa xarici investisiyaların yaratdığı təhlükə nəzərə alınır. Bu səbəbdən də bir çox beynəlxalq şirkətlər münaqişədən sonrakı dövrdə sənaye və enerjiyə sərmayə qoyuluşuna müsbət yanaşırlar.

Ölkə banklarının Qarabağda sağlamlaşma prosesində səmərəli iştirakını təmin etmək üçün ölkənin bank sektorunda aşkar edilmiş bir sıra çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görmək lazımdır.

Azərbaycanda qiymətli kağızlar bazarı inkişaf etmədiyindən investisiya banklarının fəaliyyəti hələlik gözə çarpmır. Banklar haqqında qanununda kommersiya banklarının fəaliyyətində qiymətli kağızların peşəkar fəaliyyət də nəzərdə tutulmuşdur. Amma bu gün çox təssüf ki, yalnız az sayda bank bu yöndə işləyir ki, bu da bank imicində ciddi rol oynamır.

Əslində kreditləri bankların gəlir, qazanc mənbəyi olmaqla yanaşı, iqtisadiyyat da mühüm rol oynayır. Kreditlərin oynadığı rol istehsalın və marketinqin fasiləsizliyində ifadə edilir və istehsalın genişlənməsi prosesində vacib rolda özünü göstərir. kreditlərin hesabına təkrar istehsala lazım olacaq kapitalın formalaşması prosesi güclənir, onlar həm də əsas vəsaitlərin çoxaldılması mənbəyi olaraq çıxış edir.

Araşdırmalardan məlumdur ki, ölkədə əksər banklarda risklərin idarə edilməsi prosesi zəif təşkil olunub. Bu sahədə kadr potensialı da qənaətbəxş deyil. Banklar ancaq Mərkəzi Bankın tövsiyə və qərarları ilə kifayətlənir. Hər bir bank öz bazar araşdırması aparmalı olsa da, risklərin idarə edilməsimetodlarını müəyyən etməlidir. Bu mənada banklar tədqiqatçılar və tədqiqat institutları ilə əməkdaşlıq etməli, birgə tədqiqatlar aparmalıdırlar.

Maliyyə bazarındakı rolu ilə bağlı yaranmış risklərin real qiymətləndirilməsi, idarə olunması kommersiya banklarına məxsus investisiyaların rolunu artıra bilər.

Kommersiya banklarının inkişaf xüsusiyyətləri və investisiyanın mövcud vəziyyətinin müəyyənləşdirilməsi aşağıdakı nəticələr əldə etməyə imkan yaradır:

- milli iqtisadiyyatdakı yeksəliş bankların investisiya fəaliyyətinə ciddi təsir göstərir;
- bankların inkişaf prosesi həm ekstensiv, həm də intensiv xarakter daşıyır;
- az bir sayda bankların strateji layihələrə xidmət etməsi bu bankları bank xidmətlərinin bazarında önə çəkir;
- investisiya siyasətinin qabaqcıl istiqaməti kredit vəsaitlərinin verilməsidir;
- az sayda bank istisna edilməklə Azərbaycanda kommersiya istiqamətli banklarının dünya maliyyə bazarına çıxışı ürəkaçan deyil və s.

Növbəti illərdə ayrı-ayrı qaydaların bilavasitə bank işi ilə bağlı müddəalarını ümumiləşdirərək mükəmməl bank məcəlləsi yaratmaq lazım gələcək. Ona görə ki,

bank işinin iqtisadiyyatda strateji rolu getdikcə artır, digər bank xidmətləri də yaranır. Bu mənada bank sahəsindəki qanunvericiliyinin yenilənməsi, bu sahədə elmi araşdırmaların aparmalar olduqca vacibdir.

Bank sistemində təmərküzləşmə, məcmu kapitalın artırılması müsbət prosesdir və bankların iqtisadi ekspansiyaya və iqtisadi inkişafa uyğunlaşması istiqamətlərindən biridir. Lakin bu proses Mərkəzi Bankın inzibati təsiri kimi deyil, bankların qarşıya qoyduğu məqsəd kimi baş tutmalıdır. Eyni zamanda, bu təmərküzləşmə prosesinin dərinləşməsi gələcəkdə Azərbaycanın bank bazarının inhisarlaşmasına, bazarın azsaylı banklar arasında bölünməsinə gətirib çıxarmamalıdır.

Azərbaycanın iqtisadi inkişafı regionların inkişafında da özünü göstərir. Bu inkişafa və güclənməyə regionlarda bir neçə dövlət proqramlarının reallaşdırılması şərait yaratdı. Kommersiya banklarının bu imkanından yararlanması üçün onların filial şəbəkəsini genişləndirmək lazımdır. Artıq bu amil kommersiya bankları arasında rəqabətin əsas şərtinə çevrilib. Nəzərdə saxlasaq ki, hökumət neft sektorunun gəlirləri sayəsində qeyri-neft bölməsinin, habelə kənd təsərrüfatının inkişafı strategiyasını həyata keçirməyə başlayıb, o zaman regional bank xidmətləri üçün geniş imkanlardan və tələbatın artmasından danışmaq olar.

Beləliklə, kommersiya banklarının investisiya fəaliyyətlərini iqtisadiyyatın inkişafına uyğunlaşdırılması məqsədi ilə qeyd edilən istiqamətlərə önəm verilməsi şərtdir:

- kredit portfelinin şaxələndirilməsinin prioritet istiqamətlərinin dövlətin iqtisadi siyasətinin prioritetləri ilə uzlaşdırılması;

- marketinq tədqiqatlarından səmərəli tətbiqi;

- vəsaitlərin cəlb olunması ilə əlaqəli müasir texnoloji inkişafı və s.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Bu gün investisiyaların həcmi iqtisadi inkişafın meyarı kimi qəbul edilir. İnvestisiyalar mühüm iqtisadi kateqoriya kimi sadə və irimiqyaslı təkrar istehsalda, struktur transformasiyasında, mənfəətin maksimumlaşdırılmasında və bununla da həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyədə bir çox sosial problemlərin həllində mühüm rol oynayır. İnvestisiyaların təsnifatına dair müasir baxışlar göstərir ki, investisiyalar yeni istehsal güclərinin yaradılmasına, istehsalın genişləndirilməsinə təsir göstərir.

İnkişaf etməkdə olan Azərbaycan Respublikasının iqtisadiyyatına qoyulan investisiyalar (əsasən qeyri-dövlət investisiyaları) ilk növbədə ölkənin iqtisadi yüksəlişi, yeni iş yerlərinin yaradılması, dövlət büdcəsinin gəlirlərinin daha səmərəli istifadəsi üçün böyük əhəmiyyət kəsb edir.

Ölkəmizin davamlı inkişafı, müasir iqtisadi sistemin formalaşması isə bilavasitə ölkənin bank sisteminin fəaliyyəti ilə bağlıdır. Bu baxımdan bank sisteminin səmərəliliyinin yüksəldilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və müasir idarəetmə mexanizminin səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir. Son illər Azərbaycan investisiya mühitinin yaxşılaşdırılması və ölkə iqtisadiyyatının xarici investorlar üçün daha cəlbedici olması istiqamətində mühüm nailiyyətlər əldə edib.

Müasir inkişaf tendensiyaları, ilk növbədə, investisiya fəaliyyətinin səmərəli həyata keçirilməsini və bank sektorunun bu proseslərdə hərtərəfli iştirakını şərtləndirir. Eyni zamanda, ölkənin iqtisadi həyatını birtərəfli inkişaf meyllərindən qorumaq üçün qeyri-neft sektorunun aparıcı sahələrinə, özəl sektora və kənd təsərrüfatına ciddi diqqət yetirilməlidir.

Dövlət siyasəti və bank sektorunun fəaliyyətinin tənzimlənməsində istifadə olunan mexanizmlər investisiya fəallığının artmasına mühüm təkan verə bilər. Bu məqsədlə kommersiya banklarının fəaliyyətini tənzimləmək üçün mərkəzi bank tərəfindən müəyyən edilmiş standartlar investisiya prosesinin tənzimlənməsi metodu kimi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, müəyyən likvidlik standartlarına riayət edilməsi zərurəti bu və ya digər formada pul kütləsinin həcminə

təsir edir ki, bu da kreditləşmə prosesini bu və ya digər dərəcədə tənzimləyir, bankları öz aktivlərinin bir hissəsini daha yüksək likvidlik səviyyəsində saxlamağa məcbur edir.

Azərbaycanın bank sektorunun inkişafında nəzərə çarpacaq irəliləyişlər baş versə də, yalnız bu sahənin fəaliyyətini təzahür edən bəzi göstəricilər inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrlə müqayisədə xeyli dərəcədə aşağı səviyyədədir. Ölkəmizdə 2021-ci ildə iqtisadiyyata kredit qoyuluşları 2015-ci illə müqayisədə azalmışdır. Həmçinin son 5 ildə iqtisadiyyata kredit qoyuluşu üzrə özəl bankların payı azalmışdır. Baxmayaraq ki, bankların kredit portfelinin strukturunu təhlil etdikdə görürük ki, son 3 ildə bankların kredit portfeli artmışdır. Bununla belə, biznes kreditlərinin ümumi kreditlərin həcmində payının yüksək olması iqtisadiyyatın davamlı inkişafında mühüm göstəricidir.

Azərbaycanda bank sektorunun ən böyük çatışmazlıqlarından biri bank sektorunda kapitalın və bank aktivlərinin aşağı olmasıdır. Ümumiyyətlə, bank sektoruna verilən kreditlərin daha da genişlənməsi hesabına aktivlərin artması iqtisadiyyat üçün arzuolunan haldır. Bununla belə, bank sektorunda kreditlərin strukturunda vaxtı keçmiş mövcud kreditlərin xüsusi çəkisinin də yüksək olması kredit portfelinin keyfiyyət problemi bank aktivlərinin artımına mənfi təsir göstərməsinə səbəb olur.

Bank sektorunda əsas problem kimi bank xidmətləri bazarındakı xidmətlər çeşidinin məhdud olması, mövcud olan xidmətlər üzrə tətbiq edilən xidmət haqlarının yüksək olmasını və bütün bunların yekun nəticəsi kimi təsərrüfat subyektlərinin “maliyyə əməliyyatlarında nağd pulla hesablaşmalar”ın, ümumi pul kütləsində xüsus içəkisinin yüksək olmasını göstərmək mümkündür.

Ölkənin bank sistemində kapitalın səviyyəsi bankların iqtisadiyyatda daha geniş fəaliyyət göstərməsinə imkan yaratmır. Kapitallaşması yüksək olan banklar məhz böhran illərində daha dayanıqlıdır və öz fəaliyyətlərini daha yaxşı davam etdirə bilirlər.

Azərbaycanda əksər banklarda risklərin idarə edilməsi prosesi zəif təşkil olunub. Bu baxımdan banklar tədqiqatçılar və tədqiqat institutları ilə əməkdaşlıq

etməli, birgə tədqiqatlar aparmalıdırlar. Bank sistemində təmərküzləşmə, məcmu kapitalın artırılması müsbət prosesdir və bankların iqtisadi ekspansiyaya və iqtisadi inkişafa uyğunlaşması istiqamətlərindən biridir. Lakin bu proses Mərkəzi Bankın inzibati təsiri kimi deyil, bankların qarşıya qoyduğu məqsəd kimi baş tutmalıdır.

Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəyə investisiya marağını daha da artırmış və yaxın illərdə regiona investisiya üçün nəzərdə tutulan investisiyaların həcminin artmasını şərtləndirmişdir. Azad edilmiş ərazilərin bərpası işinin təşkili güclü investisiya axınları, maliyyə və kredit resurslarının cəlb edilməsi ilə bilavasitə bağlıdır. Bu məqsədlərlə həm yerli, həm də xarici investisiya-maliyyə mənbələrinin mobilizasiyası vacibdir. Qarabağdakı rayonların əksəriyyətində investisiya tutumlu kənd təsərrüfatı və aqrar-sənaye istiqamətli fəaliyyət sahələri vardır. Məhz maliyyə-kredit resurslarının əlçatan olması şəraitində bu istiqamətlər üzrə sahibkarlıq fəaliyyətinin və biznesin səmərəliliyini yüksəltmək mümkün olar və Qarabağ regionunun dirçəldilməsində daha çox töhfələr vermək imkanı yaranar. Bu regionda emal və ərzaq sənayesinin inkişaf etdirilməsi üçün əsaslı potensialın olması, eyni zamanda resurs potensialının güclü qiymətləndirilməsi amilləri ilə bərabər, şübhəsiz maliyyə və kredit mexanizmlərinin maksimum işlək formalarının hazırlanması və tətbiqi vacibdir.

Regionun sosial-iqtisadi inkişafına təsir göstərən amillərdən biri də kiçik və orta sahibkarlığın inkişaf səviyyəsidir. Kiçik və orta sahibkarlığın inkişaf səviyyəsi birbaşa ölkə iqtisadiyyatının inkişaf səviyyəsini müəyyənləşdirir. Odur ki, əsas vəzifələrdən biri kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin genişləndirilməsidir.

Qarabağın bərpası prosesində isə bankların investisiya proseslərində iştirakı ilə bağlı aşağıdakı məsələlərə təklif edilir:

- Qarabağ regionunda aqrar-sənaye sahələrinin dirçəldilməsi vəzifələri və prioritetləri əsas götürülməklə, kənd təsərrüfatı və aqrar-sənaye sahələrinin maliyyə-investisiya mexanizmlərinin formalaşdırılması təşkil edilməlidir;

- regionda maliyyə-kredit və investisiya mexanizmlərinin inkişafına və əlçatanlığına imkan verən maliyyə-kredit və investisiya müəssisələri və birlikləri, fondlar, assosiasiyalar daxil olan şəbəkənin təşkili vacib şərtlərdəndir;

- aqrar-sənaye sahələrinin ayrı-ayrı istiqamətləri üzrə iri maliyyə-kredit və investisiyatutumlu layihələrin işlənib hazırlanması yerli və beynəlxalq maliyyə-kredit təşkilatları, investisiya fondları, başqa sözlə beynəlxalq maliyyə və iqtisadi qurumlar qarşısında təqdimatlar keçirilməli, potensial maliyyə-kredit və investisiya fəaliyyəti üzrə partnyorların ölkəmizə – Qarabağ regionuna fəal gəlişinə nail olunmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. Bakı, 2019.
2. “Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 iyun tarixli Fərmanı
3. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”. Bakı, 2014.
4. “Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə “Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 iyul tarixli Fərmanı”
5. Abdullayev Ş.Ə. (2001), “Azərbaycanda Bank sistemi və bank resurslarının idarə olunması”. Monoqrafiya, 623 s.
6. Abdullayev Ş.Ə. (2004). Kommersiya Banklarının əməliyyatları. Dərslik. Bakı, 328 s.
7. Abdullayev Ş.Ə. (2008), “Bankların resursları və onların idarə olunması sistemləri”. Dərs vəsaiti. Bakı, 462 s.
8. Abdullayev Ş.Ə., Əsgərova R.M. (2009), “Bank işi”. Dərslik. 478 s.
9. Abdullayev Ş.Ə., Xudiyev N.N. (2000). “Kommersiya Banklarında kredit resurslarının təşkili və kredit risklərinin sığortalanması”. Bakı, 469 s.
10. Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H., (2012), “İnvestisiya fəaliyyətinin təşkili”, 356 s.
11. “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin hesabat və məlumatları”, 2021.
12. “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin hesabat və məlumatları”. 2021.
13. “Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları”. Bakı, 2021.
14. “Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları”. Bakı, 2021.
15. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004

16. “Banklarda daxili nəzarət və daxili auditin təşkili” Qaydaları. Bakı, 1999
17. Bağırov D.A. (2011). “Maliyyə”. Dərs vəsaiti. 384 s.
18. Bağırov. M.M. (2003), “Bank və bank əməliyyatları” (Ali məktəblər üçün dərslik), 352 s.
19. “Banklar haqqında normativ - hüquqi aktlar toplusu” // Z.F. Məmmədovun (2009). elmi redaktorluğu ilə hazırlanamış. Bakı, Qanun, 1092 s.
20. “Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun məlumat və hesabatları”, 2021.
21. Əliyev İ.H., (2012), “İnkişaf – məqsədimizdir”, 567 s.
22. Əliyev Q. (2008), “İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi”, s. 274
23. Əliyev Q. (2008), “İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi”, Bakı, 2008, 226 səh.
24. Əsgərova R. (2009). “Pul, kredit və banklar”. Dərslik. Bakı, 325 s.
25. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 1995
26. İsayev S.Z. (2011) “İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi” I buraxılış Bakı, 189 s.
27. İsayev S.Z. (2011). “İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi”, s. 24
28. Kaşiyeva F.Ş., (2013), “Azərbaycan banklarının investisiya fəaliyyətinin prioritet istiqamətləri”, 214 s.
29. Kərimova T., (2008), “İqtisadiyyatın investisiya potensialı: formalaşması və istifadə mexanizmləri”, Bakı, “İqtisad Universiteti”, 225 səh.
30. Məmmədov Ə., Seyfullayev İ. (2013), “Vergi və investisiya”. Bakı - 376 səh.
31. Məmmədov Ə.S., (2001), “Azərbaycan iqtisadiyyatının sağlamlaşdırılmasında investisiya siyasətinin rolu. Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri”, 276 səh.
32. Məmmədov Y. (2010). “Müasir şəraitdə iqtisadi idarəetmə sisteminin təşəkkülü və inkişafı”. Elm nəşriyyatı, Bakı, s. 326
33. Məmmədov Z.F. (2010). “Pul, kredit və banklar”. Dərslik. Bakı, 375 s.
34. Məmmədov Z.F. (2013), “Bank fəaliyyətinin əsasları”. Bakı, s. 172

35. Məmmədov Z.F. – un (2010), elmi redaktorluğu ilə hazırlanmış. “Dövlət maliyyəsi normativ - hüquqi aktlar toplusu” // Bakı, Qanun, 1180 s.
36. Seyfullayev İ.Z. (2011), “Yüksək texnologiyalara əsaslanan iqtisadi modelin qurulmasında dövlətin rolu”. Azərbaycanın vergi Xəbərləri, №6, səh. 45-60
37. Şəkərəliyev A. (2011). “Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi”. İqtisad Universiteti, Bakı, 476 səh.
38. Zeynalov V.Z. (2012) “Maliyyə böhranı: tarix, nəzəriyyə və antiböhran siyasət”, Bakı, 537 s.

**Rus dilində**

1. Абалкин Л. (2003). “Логика экономического роста”. М.: ИЭ РАН, с. 67
2. Алехин Б.И. (2002). “Банки на рынке ценных бумаг” // ЭКО. - N 3. С. 28-31.
3. Антропов Д.Л. (2012). “Интегрированный риск-менеджмент в системе управления банком” // Деньги и кредит. N 1. С.33-37.
4. Аристов Д.В., К.О.Гузов (2001). “Ликвидность банков: скрытая угроза” /// Деньги и кредит. - N 7. - С.49-52.
5. Бабак В.Ф., Новгородцов А.А. (2010). “Финансирование и кредитование инвестиций коммерческими банками” // ЭКО. - N 4. - С.42-50.
6. Базулин Ю.В. и др.; под ред. Иванова В.В., Соколова Б.И. (2014). “Деньги. Кредит”. Банки: учебник / 2-е изд., перераб. и доп. — М.: Проспект, с. 233
7. Герасенко В.П. (2016), “Региональная инвестиционная политика. Экономика и управление”, Выпуск 29(1), с.65-72
8. Зулпукаров А., Карбекова А.Б. “Факторы влияния на социально-экономическое развитие регионов”. Территория науки, 2018, № 3, с. 97-103
9. Иванова С.П. (2011) “Деньги, кредит, банки: учебное пособие” / М.: Дашков и К, с. 47
10. Игонина. Л.Л. (2005). “Инвестиции”. Moskva, с. 344
11. Кузнецов Б.Т. (2012г.) “Экономика и финансовое обеспечение инновационной деятельности”. М. ЮНИТИ-ДАНА, с. 19

12. Ливенцев Н.Н., Костюнина Г.М. (2004). “Международное движение капитала (Инвестиционная политика зарубежных стран)”, М., Экономист, с. 352
13. Маршалл А. (1993), “Принципы экономической науки”. Т.1. М. Прогресс, 350 с.
14. Смит А. (1993) “Исследование о природе и причинах богатства народов”. Книга I-III, М.: Изд-во: Наука, 721стр.

## İnternet resursları

1. Azərbaycanda makroiqtisadi vəziyyət. https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/Makro%20yanvar-sentyabr%202021.pdf
2. Dövlət Statistika Komitəsinin Maliyyə və Banklar üzrə hesabatı https://www.stat.gov.az/source/finance/
3. Qeyri neft-qaz sektorunun inkişafı barədə İqtisadiyyat Nazirliyinin məlumatı. https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/Qeyri-neft_yav-sen_2021.pdf
4. Sahibkarlığa Kömək Milli Fondunun illik hesabatı. http://edf.gov.az/uploads/Statistik_melumatlar/Illik_hesabatlar/%C4%B0llik%20Hesabat%202020.pdf
5. İşğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf perspektivləri mövzusunda elmi-praktik konfrans. ADAU 26.11.2020. http://adau.edu.az/az/news/939/isaldan-azad-olunmuserazilerde-aqrar-sahenin-inkisaf-perspektivleri-mvzusunda-elmi-praktik-konfrans/.
6. Musayev A., Zeynalov A. Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir. 27.01.2021. http://www.science.gov.az/news/open/15789.
7. Рэнкинг банков Азербайджана по доле кредитов в активах http://report.az/ru/finansy/renking-bankov-azerbajdzhana-po-dole-kreditov-v-aktivah-top-10/
8. http://www.maliyye.gov.az

9. www.economy.gov.az
10. www.stat.gov.az
11. http://diegopuga.org/papers/dp0356.pdf. Diego Puga
12. http://web.mit.edu/krugman/www/FLOOD.pdf
13. http://www.econlib.org/library/Marshall/marP.html
14. www.azpromo.az

## Şəkillərin siyahısı

**Şəkil 1:** Əsas kapitala investisiyaların real artım tempi, %-ilə....................................................32
**Şəkil 2:** 2020-ci il ərzində kredit və depozitlərin artım tempi, %.................................................37
**Şəkil 3:** Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin sahələr üzrə həcmi (mln.manatla).........45
**Şəkil 4:** Qeyri neft-qaz sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü......................46

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** İqtisadiyyata investisiya qoyuluşları...........................................................................33
**Cədvəl 2:** İqtisadiyyata investisiyaların kredit təşkilatları üzrə strukturu.....................................35
**Cədvəl 3:** Maliyyə bazarlarının iştirakçıları haqqında ümumi məlumat.......................................36
**Cədvəl 4:** Bankların kredit portfelinin strukturu barədə məlumat (mln.manat)..........................37

## Sxemlərin siyahısı

**Sxem 1:** Bazar kapitalı və investisiya amilləri..............................................................................16
**Sxem 2:** Kommersiya banklarının investisiya fəaliyyətinin həyata keçirilməsində yaranan əsas problemləri...................................................................................................................................40
**Sxem 3:** İnvestisiyalara cəlbediciliyin artırılması üzrə başlıca vəzifələr.....................................40
**Sxem 4:** Azərbaycanda bank investisiya bazarının inkişafındakı əsas problemlər.......................41